www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9-11 avqust 2025-ci il Şənbə № 139 (8749) Qiyməti 60 qəpik

## Xəbər

**COVID-in "vətəni" karantinə qayıdır, Azərbaycanda isə...**

yazısı səh.14-də

## Gündəm

**Naxçıvana maneəsiz keçid reallaşır**



"Tramp marşrutu" üzrə İşçi qruplar gələn həftə toplanır - Moskva və Tehranın mümkün addımı

yazısı səh.4-də

**Moskvadan Bakıya yeni terror təhdidi - Reaksiya**

yazısı səh.7-də

**Azərbaycanlı prezidentin Ermənistana apardığı mesaj**

yazısı səh.6-də

**Rusiyadan "pomidor" həmləsi - Fermerlərimiz deyir ki...**

yazısı səh.10-da

**Putin müharibəni bu halda dayandıracaq - Gözlənti**

yazısı səh.13-də

**İrandan Azərbaycana daha bir absurd ittiham**

yazısı səh.8-də

**Ən böyük neft yatağımızda rekord azalma**

yazısı səh.12-də

**Xameneinin qəzetindən Bakıya gülməli iddia**

yazısı səh.13-də

**Bakıda 2 milyonluq dələduzluq işi - Təfərrüat**

yazısı səh.3-də

**Müəllimlər üçün gizlədilən vakant yerlər - Bunu kim edir?**

yazısı səh.15-də

**Kirayə ev bazarında qıtlıq və bahalaşma - Tələsin!**

yazısı səh.11-də

# AĞ EVDƏ TARİXİ ANLAŞMA

Əliyev, Tramp və Paşinyan arasında əsrin görüşü reallaşdı, böyük sülh üçün "Yol xəritəsi" dəqiqləşdi - təfərrüat, gözləntilər



yazısı səh.9-da

# Ölkədə onlayn qumara görə həbslər - Evlər yıxılır, ailələr müflis olur...

Hüquq-mühafizə orqanları tədbirlər görsə də, hələ də virtual azart genişlənməkdədir; sosial mediada reklam, saxta "qazanc hekayələri"

yazısı səh.3-də



*Cahangir Əsgərov:*

**"O qədər pulu götürüb hara gedə bilərəm?"**

yazısı səh.3-də



Kamran Əsədov

**"DİM abituriyentlərə ziyan vurur" - ekspert**

yazısı səh.15-də



Aşqın İmami

**İranda oğurlanan təbrizli müğənni - Pezeşkian qarışmalı**

yazısı səh.6-da



## Ölkədə elektrik enerjisinə tələbat sərhədi aşdı - Rəsmi

**Azərbaycanda 6 avqust saat 15:00-da elektrik enerjisinə tələbat rekord həddə çataraq saatda 4871 meqavat olub. Eyni zamanda sutkalıq enerji istehlakı da 100 milyon kilovat-saata yüksəlib.**

"AzərEnerji"dən "APA-Economics"ə verilən məlumata görə, bu sürətli artımın arxasında yalnız isti, bürkü və soyuducu sistemlərinin, əyləncə mərkəzlərinin çox işləməsi dayanmır. Əsas səbəb - son illərdə ölkə iqtisadiyyatının, sənaye müəssisələrinin, çoxmənzilli binaların və ümumilikdə bütün sahələrin davamlı və dinamik inkişafıdır.

Müqayisə üçün qeyd edək ki, 2018-ci ilin yayında temperatur 40-42 dərəcə olarkən ölkə üzrə pik tələbat 3625 meqavat olmuşdu. Son 7 ildə isə ölkə üzrə pik tələbat 1200 meqavatdan çox artıb. Buna adekvat olaraq ölkə başçısının tapşırığına uyğun olaraq "AzərEnerji" tərəfindən əlavə generasiya mənbələri, yarımstansiyalar yaradılıb, yeni SCADA, rele mühafizəsi, əks-qəza avtomatikası, tezliyin tənzimlənməsi, reaktiv gücün konpensasiyası üzrə yenilənmiş müasir sistemlər tətbiq edilib.

## Xətaidə avtobus qadını vurub öldürdü

**Bakı şəhəri Xətai rayonunda avtobus piyadanı vurub. "Unikal" xəbər verir ki, 1994-cü il təvəllüdlü Taleh Nəzərov idarə etdiyi 10-TF-992 dövlət qeydiyyat nişanlı avtobusla piyada 1967-ci il təvəllüdlü Adilə Həşimovanı vurub. Piyada xəstəxanaya çatdırılsa da, həyatını xilas etmək mümkün olmayıb. Faktla bağlı cinayət işi başlanılıb.**

## Bu gün çimərliklərdə 29 dərəcə isti olacaq

**Abşeron çimərliklərində gözlənilən hava şəraiti açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata əsasən avqustun 9-da arabir güclənən şimal-qərb küləyi əsəcək.**

Dəniz suyunun temperaturu Şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 27-28° isti, Cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) 28-29° isti olacaq.

## "Qarabağ"ın oyununa 14 500 bilet satılıb

**Bakıda "Qarabağ" ilə Şimali Makedoniyanın "Şkendiya" komandaları arasında keçiriləcək UEFA Çempionlar Liqasının III təsnifat mərhələsinin cavab oyununa 14 500 bilet satılıb.**

Bu barədə "Unikal"a Azərbaycan çempionunun mətbuat xidmətindən məlumat verilib.

Qeyd edək ki, avqustun 12-də Tofiq Bəhramov adına Respublika stadionunda baş tutacaq qarşılaşma saat 20:00-da start götürəcək. Səfərdəki görüşdə "köhlən atlar" rəqibi bir cavabsız qolla üstələyib.

## Təcridxanaya telefon keçirmək istədi

**Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin əməliyyat aparatının əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı istintaq təcridxanasına mobil telefon keçirilməsinin qarşısı alınıb.**

Bu barədə APA-ya Penitensiar Xidmətdən məlumat verilib.

Bildirilib ki, həbs olunmuş şəxs Ramil Mərdan oğlu Talıblıya qohumu tərəfindən gətirilmiş sovqata baxış keçirilən zaman 2 ədəd kartofun içərisində xüsusi üsulla gizlədilmiş 1 ədəd mobil telefon aparatı və 1 ədəd elektrik qidalandırıcısı aşkar olunub.

Faktla bağlı araşdırma aparılır. Cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxslərə qadağan olunmuş əşyaların verilməsi və ya ötürülməsinin cinayət məsuliyyətinə səbəb olduğu bir daha vətəndaşların diqqətinə çatdırılır.

# Əlini pəncərədən çıxaran sürücülərə xəbərdarlıq



**Yol-nəqliyyat hadisələrinin baş verməsinə səbəb olan amillərdən biri də sürücünün sükan arxasında idarəetməni itirməsidir. Bəzi sürücülər avtomobildə hərəkətdə olan zaman əlini pəncərədən çölə çıxarırlar ki, bu da öz növbəsində idarəetməni çətinləşdirir və eyni zamanda qəza riskini artırır.**

Modern.az xəbər verir ki, Bakı Şəhər Dövlət Yol Polisi İdarəsi bu cür hallarla bağlı sürücülərə xəbərdarlıq edib.

Mövcud qanunvericiliyin tələblərinə əsasən sürücü hərəkət zamanı sükanı əlindən buraxmamalıdır, belə hal aşkarlandığı təqdirdə sürücü barəsində AR İXM-nin 342.1.4-cü (hərəkət zamanı sükanı əldən buraxmağa görə) maddəsinə uyğun olaraq qırx manat məbləğində cərimə tətbiq ediləcəkdir.

DYP sürücülərə müraciət edərək baş verə biləcək xoşagəlməz hadisələrin qarşısının alınması məqsədilə onlardan diqqətli olmağı, yol hərəkəti qaydalarına birmənalı olaraq riayət etmələrini xahiş edir.

## 4 bankın əmlakları hərraca çıxarılır

**Avqustun 13-də "Bakı Hərrac Mərkəzi" MMC-də ləğv prosesində olan "Zamin Bank", "Texnika Bank", "Günay Bank" və "Dəmir Bank" ASC-lərin daşınmaz əmlaklarının satışı üzrə hərraclar keçiriləcək. Bu barədə bankların ləğvedicisi - Əmanətlərin Sığortalanması Fondu məlumat yayıb.**

Məlumata görə, söhbət "Zamin Bank"a məxsus Bakı şəhəri, Yasamal rayonu, Murtuza Muxtarov küçəsi, ev 145 ünvanındakı dəyəri 190 min manat olan 80,3 kv.metrlik, dəyəri 326 min manat olan 143,4 kv.metrlik və dəyəri 491 min manat olan 216,3 kv.metrlik qeyri-yaşayış sahələrindən, Bakı şəhəri, Yasamal rayonu, Mirzə Fətəli Axundov küçəsi, ev 83 ünvanındakı dəyəri 115,420 manat olan 71,69 kv.metrlik mənzildən, "Texnika Bank"a məxsus Bakı şəhəri, Xətai rayonu, Babək prospekti, 12A ünvandakı dəyəri 245 min manat olan 111,5 kv.metrlik qeyri-yaşayış sahəsindən, "Günay Bank"a məxsus Bakı şəhəri, Nərimanov rayonu, Koroğlu Rəhimov küçəsi, ev 3a ünvanındakı dəyəri 800 min manat olan 270,6 kv.metrlik qeyri-yaşayış sahəsindən və "Dəmir Bank"a məxsus Sumqayıt şəhəri, Sənaye zonası, Metallurq küçəsindəki istifadədə olan, dəyəri 260 min manat olan 126,5 kv.metrlik qeyri-yaşayış sahəsindən gedir.

## Gəncədə klinika cərimələnib

**Gəncə şəhər "İstanbul Genetics Klinika" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən işçinin əmək hüquqlarının pozulması faktı ilə bağlı Gəncə şəhər prokurorluğunda araşdırma aparılıb.**

Baş Prokurorluqdan APA-ya verilən xəbərə görə, araşdırma zamanı qeyd olunan hüquqi şəxs tərəfindən əmək qanunvericiliyində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi hüquqi qüvvəyə minmədən (bağlanmadan) 1 nəfərin Gəncə şəhər "İstanbul Genetics Klinika" MMC-də həkim mama-ginekoloq vəzifəsində işlərin yerinə yetirilməsinə cəlb edilməsi müəyyən edilib.

Faktla bağlı Gəncə şəhər prokurorluğunda MMC və MMC-nin direktoru Seyfəddin Miriyev barəsində İnzibati Xətalar Məcəlləsinin 192.1-ci (əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi) maddəsi ilə inzibati xəta haqqında iş üzrə icraatlar başlanaraq baxılması üçün aidiyyəti üzrə məhkəməyə və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin Gəncə-Daşkəsən Regional Şöbəsinə göndərilib.

Məhkəmənin qərarı ilə hüquqi şəxs 20.000 manat məbləğində və Dövlət Əmək Müfəttişliyi Xidmətinin müvafiq qərarı ilə MMC-nin vəzifəli şəxsi 4500 manat məbləğində inzibati cərimə edilib.

## İqor Ribeyro "Neftçi"də

**Neftçi" İqor Ribeyronun transferini açıqlayıb. Modern.az xəbər verir ki, bu barədə Bakı klubunun mətbuat xidməti məlumat yayıb. Braziliyalı müdafiəçi ilə 2 illik müqavilə imzalanıb. "5" nömrəli formanı geyinəcək futbolçu artıq komanda ilə məşqlərə də qoşulub.**

## Şəmkirdə narkokuryer saxlanıldı

**Şəmkir Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri tədbirlərlə narkokuryerlik edən Şöhrət Mahmudov saxlanılıb.**

DİN-in Mətbuat Xidmətinin Gəncə regional qrupundan APA-ya verilən məlumata görə, ondan 10 kiloqram narkotik vasitə marixuana, 1 kq tiryək aşkar edilərək götürülüb.

Saxlanılan şəxs qazanc əldə etmək məqsədi ilə narkokuryerlik etdiyini bildirib. Faktla bağlı cinayət işi başlanıb, saxlanılan şəxslər barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Araşdırmalar davam etdirilir.

## Bakı metrosunda uşaq doğuldu

**08.08.2025-ci il tarixində saat 07:40 radələrində Bakı Metropoliteninin "20 Yanvar" stansiyasından doğuş səbəbilə Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinə müraciət qeydə alınıb. Bu barədə APA-nın sorğusuna cavab olaraq, TƏBİB-dən məlumat verilib. Bildirilib ki, dərhal hadisə yerinə briqada cəlb olunub.**

Metropoliten əməkdaşları tərəfindən ilkin yardım göstərildikdən sonra təcili tibbi yardım briqadasının əməkdaşları 36-37 həftəlik hamiləliyi olan şəxsə zəruri tibbi xidmətlər göstərərək doğuşu nəzarətə götürüb. Çəkisi 2,200 qram olan oğlan uşağı dünyaya gəlib. Daha sonra ana və körpə Respublika Klinik Xəstəxanasına hospitalizasiya olunub. Hazırda hər ikisinin vəziyyəti stabil qiymətləndirilir.

## Alimenti ödəmədi, həbs olundu

**Tovuz rayonu, Qovlar qəsəbə sakini 8126 manat aliment borcunu ödəmədiyi üçün həbs olunub. "Trend" məlumat verir ki, o, 2023-cü ildən başlayaraq 2 azyaşlı övladı üçün ödəməli olduğu 440 manat alimenti üzrsüz səbəbdən ödəməyib. 2024-cü il tarixdə məsuliyyəti elan olunmaqla rəsmi qaydada xəbərdarlıq edilməsinə baxmayaraq, öz hərəkətlərini davam etdirib.**

Tovuz Rayon Məhkəməsinin qərarı ilə təqsirləndirilən şəxs Cinayət Məcəlləsinin 306.1-ci maddəsində nəzərdə tutulmuş cinayət əməlini törətməkdə təqsirli bilinərək, 1 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib.

YENİ MÜSAVAT
N 139 (8749) 9 avqust 2025

# Ölkədə onlayn qumara görə həbslər - Evlər yıxılır, ailələr müflis olur...

## Hüquq-mühafizə orqanları bu yöndə tədbirlər görsələr də, hələ də virtual azart genişlənməkdədir; sosial mediada reklamı, saxta "qazanc hekayələri"...



**Daxili İşlər Nazirliyinin (DİN) Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi onlayn mərc və qumar oyunları təşkil etməkdə şübhəli bilinən dəstə üzvlərini saxlayıb. Qeyd olunur ki, Baş İdarəyə sosial şəbəkələrdə açılmış səhifələrdə vətəndaşların onlayn qumar oyunlarına cəlb edilməsi barədə əməliyyat məlumatları daxil olub.**

Həyata keçirilən tədbirlərlə Aqil Məmmədzadə və onun başçılıq etdiyi dəstənin digər üzvləri - Orxan Gözəlov, Elmar Gözəlov, Tacir Məmmədzadə Emil Əmrahlı, həmçinin digər dəstəyə rəhbərlik edən Ülvi Məmmədov saxlanılıblar. Adları sadalanan şəxslər ölkə hüdudlarından kənarda yaradılmış və qanunsuz fəaliyyət göstərən mərc və digər qumar oyunlarının təşkilatçıları ilə əlaqə saxlayıb onlardan "fastloto.com" və digər internet saytlarında təşkil edilmiş qumar oyunlarında iştirak üçün gizli şifrələr əldə ediblər. Daha sonra onlar sosial platformalarda "Kral Kazino" və digər adlar altında virtual kassa yaradaraq onlarla əlaqə saxlayan şəxsləri pul müqabilində qumar oyunlarına cəlb ediblər. Məhkəmə qərarları əsasında dəstə üzvlərinin istifadə etdikləri gizli ofislər, mənzillər və saxlanc yerlərinə baxış zamanı çoxsaylı elektron sübutlar, bank kartları, xarici ölkələrə məxsus mobil telefon nömrələri və sair maddi sübutlar aşkar olunaraq götürülüb. Faktla bağlı Baş İdarədə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanıb. İfşa edilən hər iki şəbəkənin başçısı Aqil Məmmədzadə, Ülvi Məmmədov və digərləri barəsində həbs qətimkan tədbiri seçilib. Son illər onlayn qumar geniş vüsət alıb. Bu səbəbdən xeyli sayda insan müflis olub, evini, avtomobilini, bütün əmlakını satmaq məcburiyyətində qalıb. Hüquq-mühafizə orqanları bu yöndə tədbirlər görsələr də, hələ də virtual qumar genişlənməkdədir.

Təəssüf ki, gənclər bu tələyə düşürlər və əvvəlcə qazandıqları onları şirnikləndirir, sonra da itirməyə başlayırlar. Hətta bu səbəbdən intihar edənlər də az deyil. Ona görə də bu istiqamətdə kompleks tədbirlər görülməsinə zərurət var. Azərbaycanda son illərdə sosial mediada qanunsuz mərc oyunlarının reklamı, saxta "qazanc hekayələri" və təsiredici vizual görüntülərlə bəzədilmiş paylaşmalar gənclərin bu oyunlara marağını artırır. Çox vaxt işsiz və ya maddi çətinliklə üzləşən insanlar asan qazanc ümidi ilə bu oyunlara qoşulur, lakin nəticədə daha dərin borclanma, ailədaxili gərginlik və psixoloji sarsıntı ilə üzləşirlər. Bu prosesin qarşısını tam almaq, həmin saytlara girişi bloklamaq mümkündürmü?

"Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov "Yeni Müsavat"a deyib ki, Daxili İşlər Nazirliyinin son aylar ərzində həyata keçirdiyi uğurlu əməliyyatlar göstərdi ki, ölkə daxilində və xarici serverlər üzərindən idarə olunan yüzlərlə sayt Azərbaycan vətəndaşlarını bu virtual qumar "bataqlığına" cəlb edir: "Əslində, qanunvericilik mövqeyi birmənalıdır, Azərbaycanda qumar oyunları qadağandır. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 244-cü maddəsində bu açıq şəkildə yazılıb. Amma faktlar onu deməyə əsas verir ki, reallıq tamam başqadır. Onlarla, yüzlərlə sayt bu gün də aktivdir. İnformasiya resurslarının bloklanması ilə bağlı hüquqi əsaslar mövcuddur. Qanun pozan şəxslər saxlanılır, iş materialları toplanır, bəziləri həbs olunur. Amma bu, sadəcə aysberqin görünən hissəsidir. Xüsusilə gənclər bu bataqlığa düşür. Çünki alternativ yoxdur. Təhsil var, amma gəlir gətirmir. İş var, amma maaş kifayət etmir. Xaricdə yaşayan influencerlərin "bir gecədə 10 min qazandım" videosu isə gənci virtual mərc saytına aparır".

Natiq Ələsgərov deyib ki, ən təhlükəli cəhətlərdən biri də budur ki, bu mərc oyunlarına girişin əsas kanalı bank kartlarıdır: "Yəni burada yalnız fərdi şəxs yox, bank sektoru da məsuliyyət daşıyır. Əgər bir şəxs xarici qumar saytına ayda 10-20 dəfə pul köçürürsə, bu artıq şübhəli əməliyyatdır və bank AML (anti-money laundering) və KYC (know your customer) prinsiplərinə əsasən bu tranzaksiyaları monitorinqə götürməlidir. Amma banklar ya görmür, ya da görməzliyə vurur".

Natiq Ələsgərov deyib ki, texnoloji nəzarət sistemləri gücləndirilməlidir: "Əvvəllər kazinoların qapısı yalnız müəyyən kəsim üçün açıq idisə, bu gün hər evin, hər smartfonun içində "Kral Kazino" adlı uçurum yerləşir. Buraya düşmək üçün cəmi bir klik kifayətdir. O klikdən sonra isə insanın həyatında "qazandım" sözündən daha çox "itirtdim" ifadəsi yer tutur. Ailələrin dağılması, borc bataqlığı, gənclərin psixoloji travmaları və intiharla nəticələnən sonluqlar sadəcə statistik rəqəm deyil, ictimai reallıqdır. Bu oyunların "asudə vaxt əyləncəsi" kimi təqdim olunması, sosial şəbəkələrdə gənclərə sırınması, açıq-aşkar psixoloji manipulyasiya və ictimai təhlükədir. Məsələ təkcə cinayət məsuliyyəti ilə həll olunmamalıdır. Burada ictimai maariflənmə, iqtisadi dəstək, təhsil siyasəti və dövlətin texnoloji müdafiə imkanlarının səfərbərliyi vacibdir. Bu problem həm də bank sektorunun susqunluğunda kök salır. Banklar müşahidə etməli olduqları pul axınlarını ya görmür, ya da bilərəkdən reaksiya vermir. Halbuki hər bir şübhəli tranzaksiya həm qanuni, həm də mənəvi olaraq reaksiya tələb edir. Əgər bir vətəndaş hər ay xarici kazinoya eyni miqdarda pul köçürürsə, bu, artıq təkcə onun problemi deyil, cəmiyyətin və maliyyə sisteminin problemidir. Onlayn qumar yeni nəsil narkotikdir. Asılılıq yaradır, ailələri parçalayır, dəyərləri məhv edir".

Natiq Ələsgərov deyib ki, buna qarşı mübarizə isə təkcə polis əməliyyatları ilə deyil, qəti qanunvericilik tədbirləri, rəqəmsal nəzarət sistemləri, maarifləndirmə kampaniyaları, psixoloji dəstək mərkəzləri və ictimai qınaqla aparılmalıdır.

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

## "O qədər pulu götürüb hara gedə bilərəm ki?" - Cahangir Əsgərov



Cahangir Əsgərov

AZAL-ın sabiq prezidenti Cahangir Əsgərovun ölkədən getdiyi, hazırda İspaniyada yaşadığı barədə məlumatlar yayılıb. Həmçinin Cahangir Əsgərovun banklardan birində 170 milyon manat vəsaitinin olduğu, həmin məbləğdən hər ay 1 milyon 200 min manat gəlir əldə etdiyi qeyd olunub.

Cahangir Əsgərov Manset.az-a açıqlamasında deyilənləri təkzib edib. C.Əsgərov qeyd edib ki, hazırda öz bağında istirahət edir:

"Əlbəttə, bu məlumatlar yanlışdır. Mən bilmirəm, bunu yazanların məqsədi nədir? Hazırda İsmayıllıda, öz bağımda istirahət edirəm. Bir azdan buradan çıxıb Bakıya - Şüvəlandakı bağıma gedəcəyəm.

Bəli, mən İspaniyaya gedirəm, orada müalicə alıram. Sentyabrın 15-də müalicə üçün yenidən İspaniyada olacağam. Lazım gələrsə, klinikanın adını da deyə bilərəm. Hazırda pensiyada olan adamam. Xahiş edirəm, məndən əl çəksinlər. Ölkədə qanunlar var, mən o qədər pulu götürüb hara gedə bilərəm ki? Bunlar manyakdırlar. Heç olmasa yazanda elə yazsınlar ki, inandırıcı olsun. Mən hazırda tək yaşayıram. Xahiş edirəm, mənə toxunmayın. Mənə toxunanları Allaha tapşırıram".

# Bakıda 2 milyonluq dələduzluq işi

**17 Azərbaycan vətəndaşına qarşı 2 milyon manatlıq dələduzluq ittihamı ilə beynəlxalq axtarışda olmuş Qədim Ədilovun çoxcildli cinayət işinin materialları baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Bu haqda Musavat.com-a iş üzrə zərərçəkənlər məlumat veriblər. Bildiriblər ki, Qədim Ədilov uzun müddət istintaqda yayına bilsə də, son nəticədə əməllərinə görə həbsə alınıb. İş üzrə zərərçəkənlər baş prokuror Kamran Əliyevə ünvanladıqları müraciətin mətnini də redaksiyamıza təqdim ediblər. Həmin müraciətdə deyilir:**



Hörmətli Kamran müəllim!

Biz məşhur dələduz Ədilov Qədim Ədil oğlunun cinayət əməllərindən zərərçəkmiş Azərbaycan vətəndaşları olaraq şəxsən Sizə və Baş Pokurorluğun İstintaq idarəsinə, xüsusi ilə külli miqdarda dələduzluq törətmiş və uzun müddət müxtəlif yollarla məsuliyyətdən yayınaraq təkrar-təkrar cinayət əməlləri törətmiş bu cinayətkarı layiqli cəzasına çatdırmaq üçün obyektiv araştırma apararaq işi AR CM 178.4( xüsusi ilə külli miqdarda dələduzluq) maddəsi ilə işi Ağır Cinayətlər Məhkəməsinə göndərməyinizə görə təşəkkür edirik! Ümidvarıq ki, Sizin rəhbərlik etdiyiniz qurumun İstintaq İdarəsinin obyektiv araşdırmasına məhkəmə ədalətli hüquqi qiymət verərək cəmiyyətimiz üçün çox təhlükəli olan dələduzu layiq olduğu cəzaya məhkum edəcək.

Qeyd edək ki, Qədim Ədilov ötən ilin fevralına qədər 17 Azərbaycan vətəndaşına qarşı 2 milyon manatlıq dələduzluq ittihamı ilə beynəlxalq axtarışda olub. Zərərçəkənlər Qədim Ədilovun onları necə aldatdığını da açıqlamışdılar.

"2014-cü ildə bu dələduz özünü "Azəri AQA" firmasının direktoru kimi təqdim edib Rusiyadan "Aziz" adlı firmadan taxta alıb satmağı təklif edirdi. Həmin firmadan ayrı-ayrı firmaların adına rəsmiləşmiş vaqon sənədləri göstərib pul alırdı. Sonradan məlum oldu ki, eyni vaqon üçün 8-10 nəfərdən pul alıb. Rusiyadakı "Aziz" firmasının direktoru Mirhəbib Ağalarov ilə biz istintaqda tanış olanda məlum oldu ki, dələduz Qədim Mirhəbib Ağalarova deyirmiş ki, filan firmaya və ya şəxsin adına vaqon yüklə, rəsmiləşdir, nömrəni göstərib pulunu vurduracam. Sonra deyirmiş ki, həmin şəxsin ödəmək imkanı olmadı, indi sənədi ləğv et, başqa firmanın adına rəsmiləşdir. Sonda da deyirmiş ki, heç birindən pul ala bilmədim. Yük dolu vaqonu özümün "Azəri AQA" firmasına göndər, satıb pulunu özüm verəcəm. Beləcə bizlərlə yanaşı, Mirhəbib Ağalarovu da aldadıb 200 min dollarlıq malını ələ keçirib və onun sənədlərini bizə göstərib ümumilikdə 2 milyondan artıq pulu ələ keçirdi", deyə bildirmişdilər.

Qədim Ədilov 2024-cü ilin fevralında qaçıb gizləndiyi Rusiya ərazisində həbsə alınıb. Onun həbsi zərərçəkənlərin bu ölkənin hüquq-mühafizə orqanlarına müvafiq müraciətlərindən sonra mümkün olub. Rusiya Daxili İşlər Nazirliyinin Kaluqa Vilayəti üzrə İdarəsi Qədim Ədilovu qaçaq həyatı yaşadığı vilayət ərazisində müəyyən edərək həbsə alıb. 26 fevral 2024-cü ildə həbsə alınan Qədim Ədlilov elə həmin gün təcridxanaya yerləşdirilib. Bu haqda onun barəsində beynəlxalq axtarış elan etmiş Azərbaycan hüquq-mühafizə orqanlarına, zərərçəkənlərə də məlumat verilib. Bu ilin oktyabrında Qədim Ədilov Azərbaycan hüquq-mühafizə orqanlarına təhvil verilib.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**




# Naxçıvana maneəsiz keçid reallaşır

## “Tramp marşrutu” üzrə İşçi qruplar gələn həftə toplanır - Moskva və Tehranın mümkün addımı

**Regionun gələcəyi üçün mühüm əhəmiyyət daşıyan “TRİPP” - Trump Route for International Peace and Prosperity (“Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu”) təşəbbüsü üzrə ilk praktik addımlar atılır.**

“Yeni Müsavat” xəbər verir ki, gələn həftə bu layihə çərçivəsində texniki işçi qrupların ilk görüşü keçiriləcək. Görüşdə marşrutun keçəcəyi ərazilər, təhlükəsizlik mexanizmləri və texniki koordinasiya məsələləri müzakirə olunacaq.

Məlumata görə, “TRİPP” təşəbbüsü ABŞ prezidenti Donald Trampın adını daşıyır və onun şəxsi nümayəndəsi, iş adamı və diplomat Stiv Vitkoffun vasitəçiliyi ilə irəli sürülüb. Layihə Zəngəzurdan keçməklə Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı birləşdirən yeni ticarət və yükdaşımalar marşrutunu nəzərdə tutur.

Bu təşəbbüs artıq “dəhliz” anlayışı ilə deyil, mülki, iqtisadi və kommersiya yönümlü bir marşrut kimi təqdim olunur. Vaşinqton regiona hərbi yox, iqtisadi iştirakla daxil olmağa çalışır. Layihənin icrasında ABŞ-ın “birinci dərəcəli operatorları” vasitəsilə idarəetmə və nəzarət həyata keçiriləcək, ərazidə qoşun və ya hərbi baza yerləşdirilməsi nəzərdə tutulmur.

Ekspertlər “TRİPP” layihəsini regionun geosiyasi xəritəsini yenidən cızacaq təşəbbüs kimi dəyərləndirirlər. Bu marşrut yalnız Azərbaycanın Naxçıvanla birləşməsini deyil, eyni zamanda Avropa ilə Asiya arasında yeni ticarət və enerji bağlantısını təmin edə bilər. Elektrik, qaz, neft və optik lif xətlərinin bu marşrut üzərindən keçməsi planlaşdırılır ki, bu da Orta Dəhlizə alternativ və daha təhlükəsiz bir yol yaradacaq.

Qərbin bu təşəbbüsü Rusiyanı və İranı narahat edir. Çünki bu marşrut onların regiondakı mövqelərini zəiflədə bilər. Moskva və Tehran “Zəngəzur dəhlizi”nin öz nəzarətlərində olmasını istəyirdi, amma “TRİPP” layihəsi bu təsiri kənarlaşdırır.

Azərbaycan üçün isə ən vacib məqam - Naxçıvana təhlükəsiz və maneəsiz keçidin təmin olunmasıdır. Bu məqsədə Vaşinqtonun dəstəyi ilə daha çevik və siyasi maneələrsiz çatmaq mümkündür.

İndi diqqətlər bu suallar üzərində cəmləşib:

- Marşrut nə vaxt hazır olacaq?

- Layihənin icrası nə qədər vaxt aparacaq?

- Rusiya və İran bu prosesə necə reaksiya verəcək?

Politoloq Zaur Məmmədov “Yeni Müsavat”a açıqlamasında deyib ki, marşrutun çox az məsafəni nəzərdə tutmasına baxmayaraq, olduqca vacib strateji əhəmiyyət daşıyır. Onun sözlərinə görə, bu marşrut Türkiyə, Rusiya, ABŞ, Avropa İttifaqı, Rusiya, İran və digər ölkələrin maraqlarının kəsişdiyi və toqquşduğu nöqtədir:

“Bu yolun açılması ilə bağlı anlaşmaya əsasən Ermənistan ABŞ-in şirkətinə Zəngəzur yolunu bir neçə 10 illik ərzində ”Tramp marşurutu" adı altında icarəyə verəcək və maneəsiz gediş-gəliş təmin olunacaq. Eyni zamanda, Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı, orta xətti birləşdirən marşurut yaradılacaq. Lakin təşəbbüsün reallaşdırılması o qədər də asan deyil. Çünki kifayət qədər ziddiyətli məqamlar var.

Gələn həftə baş tutması planlaşdırılan Tramp-Putin görüşünü də gözləməliyik. Görüşün nəticəsi Cənubi Qafqazdakı proseslərə mütləq şəkildə təsir edəcək. Lakin dediyim kimi Rusiya və ABŞ dövlət başçılarının görüşündən sonra qəti söz demək mümkün olacaq".

Politoloq bildirib ki, marşrutun reallaşması Trampın öz prinsiplərinə sona qədər sadiq qalmasından asılı olacaq: “Məsələn, Tayvan və Çin məsələsində bir qədər geri çəkilmə oldu. Çinlə bağlanacaq iqtisadi saziş ərəfəsində Tramp hətta Tayvanın liderini qəbul etmədi. Həmçinin Ukrayna-Rusiya müharibəsinin atəşkəslə nəticələnməsi ilə bağlı Trampın bir sıra tövsiyələri var idi. Ona görə də düşünməyək ki, Cənubi Qafqazla bağlı Rusiya və İran asanlıqla Trampa güzəştə gedəcək. Bu baxımdan, ”bölgü bazarlığı"nın olması mümkündür. Bu siyasi bazarlıq Suriyanı, Yaxın Şərqi, Ukraynanı, Mərkəzi Asiyanı, Şərqi Avropanı, o cümlədən Cənubi Qafqazı əhatə edə bilər. Buna görə də Azərbaycan Ermənistandan fərqli olaraq Zəngəzur dəhlizi və ya regiondakı digər nəqliyyat qovşaqları ilə bağlı 3-cü ölkə ilə anlaşmaya getmir. Bu təşəbbüs sırf Ermənistan və ABŞ arasında imzalanacaq sənəddir və Rusiya tərəfindən problemləri çoxaldacaq məsələdir".

Z.Məmmədov liderlərin avqustun 8-də Vaşinqtondakı görüşünün marşrutun reallaşmasına təsirindən də danışıb. O bildirib ki, dövlət başçıları arasındakı görüşdən gözləntilər müsbətdir: “Azərbaycan və Ermənistan liderləri arasında baş tutmuş Əbu-Dabi və baş tutacaq Vaşinqton görüşünün nəticələri Cənubi Qafqazdakı prosesləri sülhə, sabitliyə və suverenliyə doğru aparacaq. Bu görüşlər Ermənistanı Azərbaycana və Türkiyəyə daha da yaxınlaşdıracaq. Bugünki görüşlə Ermənistan Qarabağla bağlı heç bir mübahisəli məsələnin olmaması öhdəliyini üzərinə götürəcək. Çünki biz bilirik ki, Trampa qarşı da cidid təzyiqlər var. ABŞ-dəki erməni diasporası, erməni konqresmenlər tərəfindən hətta Ağ Evə məktub göndərilib. Siyasi təzyiq və manipulyasiyadan istifadə edilir. Trampı günahlandırırlar ki, o, Qarabağ ermənilərin geriyə qayıdış məsələsini gündəmə gətirmir.

Hesab edirəm ki, Vaşinqton danışıqları Azərbaycanın 2022-ci ildən bəri bəyan etdiyi təkliflər ətrafında aparılacaq. Tramp da bunu qəbul edir. ABŞ lideri Azərbaycanın masa üzərinə qoyduğu prinsiplər üzrə hərəkət edir. Ümumilikdə deyə bilərəm ki, “Tramp marşurutu”nun reallaşması bu görüşdən və bölgə ətrafındakı geosiyasi proseslərdən, ABŞ-Rusiya danışıqlarından asılı olacaq".

❑ **Şahanə RƏHİMLİ,**
**“Yeni Müsavat”**

# “Azərbaycan yükdaşımalarda regional haba çevriləcək” - Deputat

**“Sülh anlaşmasının imzalanmasının strateji, siyasi və təhlükəsizlik aspektləri ilə yanaşı iqtisadi təsirləri də az deyil. Bir müddət öncə ”Moody’s" beynəlxalq reytinq agentliyinin qeyd etdiyi kimi, anlaşma regional sabitlik ilə bağlı narahatlıqları aradan qaldıra və inkişaf yönümlü impulsları, eləcə də xarici sərmayə marağını stimullaşdıra bilər".**




Musavat.com xəbər verir ki, deputat Vüqar Bayramov belə şərh edib. Onun sözlərinə görə, Qafqazda sülh Azərbaycanın müxtəlif sahələrdə iqtisadi inkişafını daha da dəstəkləyə bilər: “Belə ki, sülh müqaviləsinin imzalanması regionda daha çox sərmayənin cəlb edilməsinə imkan yaradacağı gözlənilir. Xarici investorlar sülhün əldə edildiyi Qafqaza sərmayə qoyluşlarında daha maraqlı olacaqlar. Bu isə regiona daha çox sərmayənin cəlbi deməkdir. Xüsusilə nəzərə almalıyıq ki, uzun müddət regiona sərmayənin cəlb edilməsinə təsir göstərən faktorlardan biri də konfliktlər olmuşdur. Yeni dövrün yeni hədəflərinə uyğun olaraq qeyri-neft sektoruna daha çox sərmayənin cəlb edilməsi əsas prioritetlərdən biridir. O istiqamətdə də aparıcı ölkələr ilə əməkdaşlığın gücləndirilməsi, daha çox sərmayənin cəlbi istiqamətində işlər həyata keçirilir. Gözlənilir ki, sülh müqaviləsindən sonra xüsusən inkişaf etmiş ölkələr tərəfindən regionda daha çox sərmayənin cəlbinə şərait yaradılacaq”.

Deputat vurğulayıb ki, Azərbaycan və Ermənistan arasında əlaqələrin yenidən bərpası və Zəngəzur dəhlizinin istifadəyə verilməsi bütövlükdə region üçün yeni inkişaf imkanları demək olacaq: “Zəngəzur dəhlizi həm Şimal-Cənub, həm də Qərb-Şərq nəqliyyat dəhlizlərinə inteqrasiya oluna biləcək. Bu da nəticə etibarilə yeni dəhlizlərin və yeni layihələrin reallaşması üçün bir zəmin yaradır. O baxımdan Zəngəzur dəhlizi Azərbaycan üzərindən daha çox yüklərin daşınması və bütövlükdə, onun iqtisadi fayda götürməsi üçün mühüm bir imkandır. Çünki Zəngəzur dəhlizinin istifadəyə verilməsi Azərbaycan üzərindən illik olaraq təxminən 35 milyon ton yükün daşınmasına imkan verə bilər. Bu da bütövlükdə Azərbaycanı beynəlxalq yükdaşımalarda regional haba çevirəcək.

Bütövlükdə, Azərbaycan və Ermənistan arasında sülhün əldə edilməsi daha stabil və inkişaf etmiş Qafqaza nail olunmasında vacib addım olacaq".

❑ **Nigar HƏSƏNLİ,**
**“Yeni Müsavat”**




# Poqosyan: “Naxçıvana yol dəhliz statusunda olacaq”

**“Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında açılacaq yol dəhliz statusunda olacaq”. Teleqraf xəbər verir ki, bu barədə erməni politoloq Ara Poqosyan bildirib.**

“Xəttin ”Tramp yolu" və ya “Zəngəzur dəhlizi” adlandırılmasının heç bir fərqi yoxdur. Dəhlizdə olduğu kimi, Ermənistan istənilən vaxt yolu bağlaya bilməyəcəksə, eyni prinsip Azərbaycan ərazisində Ermənistana da şamil olunmayacaqsa, demək, həmin şərtlər tətbiq olunacaq. Sonra deməyin ki, bu, dəhliz deyil", - ekspert bildirib.

## Bakıdan Tiflisə dəstək




**Azərbaycan Gürcüstandakı münaqişənin sülh yolu ilə həllini dəstəkləyir. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) "X" hesabında paylaşım edilib.**

"Azərbaycan Gürcüstandakı münaqişənin beynəlxalq səviyyədə tanınmış sərhədlər, suverenlik və ərazi bütövlüyü prinsipləri əsasında sülh yolu ilə həllini tam dəstəkləyir.

Azərbaycan, həmçinin Gürcüstanla yaxın tərəfdaşlığa və mehriban qonşuluq münasibətlərinə böyük önəm verməyə davam edir",- paylaşımda deyilir.

Qeyd edək ki, bu gün Rusiya ilə Gürcüstan arasında 2008-ci ilin avqust ayında baş vermiş müharibədən 17 il ötür.

# "Prezident Əliyevin yeni planı işə düşüb"

## Səməd Seyidov: "Bölgədə planlar quranlar anlamalıdırlar ki, o qatar artıq gedib"



Xəzərdə yeni neft və qaz yataqlarının işlənməsi üzrə müqavilə imzaladı, Tramp "907-ci" düzəlişin dayandırılması məsələsini gündəmə gətirir, Minsk Qrupu isə buraxılacaq. "Yeni Əsrin müqaviləsi" - Prezident Əliyevin yeni, dahiyanə planı artıq işə düşüb".

**Azərbaycan-Amerika Birləşmiş Ştatları parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, deputat Səməd Seyidov Teleqraf-ın suallarını cavablandırıb.**

Onun sözlərinə görə, 1994-cü ildə ulu öndər Heydər Əliyev qeyri-mümkünü mümkün etdi; dünyanın aparıcı neft və qaz hasilatı şirkətləri ilə imzaladığı "Əsrin müqaviləsi" ilə o, ölkəmizin çiçəklənməsi üçün bütün zəruri şəraiti yaratdı və eyni zamanda, Cənubi Qafqazın qapılarını Qərbə geniş şəkildə açdı: "Bu müqavilə vasitəsilə Qərb Azərbaycanın suverenliyinə və müstəqilliyinə əsaslanan genişmiqyaslı geosiyasi və iqtisadi sabitlik zəmanətləri verdi. Həmin tarixi anın imzaçıları olan ABŞ, Avropa və dünyanın digər aparıcı dövlətləri Cənubi Qafqazla bağlı strateji planlarını Azərbaycanla və onun milli maraqları ilə uzlaşdırmağa başladılar. Azərbaycanın prioritetləri isə hər zaman suverenlik və müstəqillik olub. Ulu öndər Heydər Əliyevin bu dahiyanə planı bugünkü Azərbaycanı yaratmağa, qalib dövlətə çevrilməyə, ölkəmizdə separatizmə son qoymağa və suverenliyimizi tam bərpa etməyə imkan verdi.

1994-cü ildən bu günə artıq 31 il keçib və "Əsrin müqaviləsi" öz əvəzolunmaz missiyasını yerinə yetirərək, tariximizin qürurverici səhifəsinə çevrilib. Biz bu tarixlə fəxr edirik və əminik ki, gələcək nəsillər də onunla fəxr edəcəklər. Lakin tarixi bir sənədə çevrilmiş "Əsrin müqaviləsi", eyni zamanda onunla birlikdə gətirdiyi zəmanətləri də "yaşlandırdı". Bu, yalnız zamanın keçməsi ilə deyil, ətrafımızdakı dünyanın köklü şəkildə dəyişməsi ilə bağlıdır.

İkinci Dünya müharibəsindən sonra qurulmuş beynəlxalq təhlükəsizlik arxitekturası və Sovet İttifaqının dağılmasından sonra müstəqil dövlətlərin imzaladığı razılaşmalar artıq işləmir, demək olar ki, dağılmış vəziyyətdədir. Bu isə yeni bir geosiyasi reallıq yaradıb: beynəlxalq hüququn yerini güc hüququ alıb. Lakin digərlərindən fərqli olaraq, biz müasir tarixin bu çətin dövrünə hazırlıqlı şəkildə yanaşdıq. Bu 30 il ərzində çox şeyə nail olduq. Azərbaycan gücləndi, Zəfər qazandı, yeni regional reallıq yaratdı, Türkiyə ilə birlikdə Şuşa Bəyannaməsini imzaladı ki, bu da regional təhlükəsizlik məsələlərini həll etməyə yönəlmişdi. Amma bu addımlar kifayət etmədi. Azərbaycanın arzuladığı dünya qlobal çağırışlar qarşısında yetərincə dayanıqlı deyildi".

S.Seyidov qeyd edib ki, Azərbaycanın yüksəlişi, iqtisadi inkişafı, siyasi nüfuzu və coğrafi əhəmiyyəti bəzi dairələrdə narahatlıq yaratdı: "Bu düşmən qüvvələr bizə qarşı yeni savaşa - informasiya müharibəsinə start verdilər. Azərbaycanın imicini ləkələməyə çalışan bu qüvvələr revanş istəyən separatçılarla, aparıcı paytaxtlarda yaşayan erməni diasporu, öz neokolonial maraqlarını güdən fransız siyasətçiləri ilə Avropanın solçu təşkilatlarında toplanmış, türklüyə və islama qarşı nifrət dolu olan islamofoblarla konsolidasiya olunmuş cəbhə yaratdılar. Satılmış siyasətçilər və QHT-lər, korrupsiyalaşmış media və jurnalistlər, Soros və artıq mövcud olmayan USAID tərəfindən dəstəklənən "insan haqları" təşkilatları bir araya gələrək elə bir təzyiq cəbhəsi yaratdılar ki, ona qarşı durmaq qeyri-mümkün görünürdü. Avropa Şurası və Avropa Parlamenti də bu kampaniyaya qoşulduqda, bu prosesin Bayden (ABŞ-nin sabiq prezidenti Cozef Bayden) administrasiyası tərəfindən koordinasiya olunduğuna dair heç bir şübhə qalmadı. Bu gün, bütün bunlar arxada qaldıqdan sonra, Prezident İlham Əliyevin həm hərb meydanında, həm də informasiya cəbhəsində göstərdiyi sərkərdəlik məharətinə bir daha heyran olmamaq mümkün deyil. Onun ağıllı, cəsarətli siyasətinin rəhbər tutaraq biz Avropa Şurası Parlament Assambleyasındakı fəaliyyətimizi etiraz olaraq dayandırdıq, rüşvətə bulaşmış Avropa Parlamenti deputatlarını ifşa etdik, daxili işlərimizə müdaxilə cəhdlərinə sərt reaksiyalar verdik, xarici siyasət prioritetlərimizi dəyişərək Şərqə, türk və islam dünyasına yönəltdik, Qoşulmama Hərəkatında fəal iştirak etməyə başladıq".

Deputat bildirib ki, bütün bunlar bizə yalnız müqavimət göstərməyə deyil, Azərbaycan xalqının iradəsini, onun azad və müstəqil yaşamaq istəyini nümayiş etdirməyə imkan verdi: "Məhz onun siyasəti nəticəsində Azərbaycanın mövqeyi nəzərə alınmağa, təhlil edilməyə başladı. Bu müsbət irəliləyişlər hələ də qeyri-sabit idi. Təbii ki, Türkiyə, Pakistan, İsrail ilə əlaqələrimiz, xüsusilə Şuşa Bəyannaməsi bizə təhlükəsizlik zəmanətləri verirdi, lakin bunlar kifayət deyildi. Ukrayna ətrafında baş verən hadisələr, Rusiyanın bizə münasibətindəki dəyişikliklər, Yaxın Şərqdəki vəziyyət göstərdi ki, yalnız regional səviyyədə imzalanmış razılaşmalar təcavüzə məruz qala bilərlər. Bu gün qlobal zəmanətlərə malik olmaq üçün supergüc səviyyəsində əməkdaşlığa ehtiyac var. Prezident İlham Əliyev bunu dəqiq anlayaraq, elə bir addım atdı ki, onun tarixi əhəmiyyəti və perspektivi 1994-cü ilin "Əsrin müqaviləsi" ilə eyni səviyyədə qiymətləndirilə bilər. Bu, artıq XXI əsrin faktıdır, "Yeni Əsrin müqaviləsi"dir.

İndi ölkədə 1994-cü ildən bəri yaradılan bütün enerji layihələri və logistik marşrutlar təkcə ikinci nəfəs almır, eyni zamanda konkret iqtisadi və siyasi toxunulmazlıq zəmanəti qazanır. Bölgədə boşluq yaranacağı ümidi ilə planlar quranlar anlamalıdırlar ki, o qatar artıq gedib və bir daha qayıtmayacaq".

S.Seyidov deyib ki, Rusiya-Ukrayna və İran-İsrail müharibəsi fonunda Cənubi Qafqazın geosiyasi və iqtisadi dəyəri daha da artdı: "Əldə ediləcək yeni müqavilə sayəsində region ABŞ-nin strateji maraqları zonasına daxil olur. Başqa sözlə, ABŞ bundan sonra Mərkəzi Dəhlizi - ticarət, enerji, qaz, elektrik enerjisi və optik-lifin Avropaya daşınmasını öz strateji planlarına daxil edir.

Bu sənədlərin Vaşinqtonda imzalanmasından əvvəl belə artıq proses başlamışdı. "ExxonMobil"

## Kremldən daha bir ölkəyə hədə



**"Moldova Prezidenti Maya Sandu ölkə üçün Mixail Saakaşvilinin daha pis təcəssümü olacaq".**

Musavat.com xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib.

"Qaqauziya Kişinyov məhkəməsinin Qutsul ilə bağlı hökmünü tanımır, muxtariyyət parlamenti bununla bağlı müvafiq qətnamə qəbul edib. Sandu - növbəti Saakaşvilidir, amma daha pisi...", - deyə Zaxarova Teleqramda yazıb.

Qeyd edək ki, Moldova məhkəməsi Qaqauziya lideri Yevgeniya Qutsulu 7 il müddətinə azadlıqdan məhrum edib.

## Türkiyədən Vaşinqton görüşünə reaksiya



**"Türkiyə Cənubi Qafqazdakı iki qonşusu - Azərbaycan və Ermənistan arasında davamlı sülhün bərqərar olması istiqamətində atılan addımları alqışlayır".**

Bunu sözləri "Hürriyyət Deyli Nyus"un Ankara nümayəndəsi, türkiyəli jurnalist Sərkan Dəmirdaş deyib.

"Türkiyə Azərbaycan və Ermənistan arasında əldə edilən irəliləyişlə paralel olaraq Ankara ilə İrəvan arasında 2021-ci ildən bəri davam edən normallaşma prosesini irəlilətməyə hazır olduğunu bəyan edir.

Türkiyə ilə Ermənistan arasında diplomatik əlaqələr yoxdur və quru sərhədləri hələ də açılmayıb. Bununla belə, Paşinyan və Rəcəb Tayyib Ərdoğan arasında münasibətlərin inkişafı və İrəvanın 1915-ci il hadisələri ilə bağlı mövqeyini dəyişməsi tərəflər arasında dialoqa təkan verib.

Azərbaycan və Ermənistan arasında daimi sülh sazişinə doğru irəliləyişdən asılı olaraq, Türkiyə ilə Ermənistan arasında diplomatik münasibətlər və siyasi-iqtisadi əlaqələrin qurulması ilə bağlı razılaşmalar gündəmdə olacaq", - yazar bildirib.

YENİ MÜSAVAT
N 139 (8749) 9 avqust 2025

# Azərbaycanlı prezidentin Ermənistana apardığı mesaj

## Pezeşkianın İrəvana səfəri bölgədə hansı dəyişikliklərə səbəb ola bilər - deputat və ekspert mövqeyi



**İran prezidenti Məsud Pezeşkian yaxın iki həftə ərzində Ermənistana rəsmi səfər edəcək. Bunu Tehran televiziyasına müsahibəsində İranın xarici işlər naziri Abbas Əraqçi deyib. Nazir xatırladıb ki, prezident Pezeşkian bundan əvvəl İraq, Pakistan, Azərbaycan və Qətərə səfər edib.**

İran ciddi şəkildə narahatdır ki, ABŞ qoşunları Ermənistanda yerləşdirilə bilər və ya Zəngəzur dəhlizinin açılması İranı oyundankənar vəziyyətdə saxlaya bilər. Amma güman edirəm ki, Pezeşkianın səfərindən sonra veriləcək bəyanatlar fonunda bu məsələlər bir qədər aydınlaşacaq. Ermənistan İrana bir daha vəd edə bilər ki, onun ərazisindən heç bir zaman İrana qarşı hər hansı qüvvə istifadə edilməyəcək. Eyni zamanda, Ermənistanın qoşulduğu layihələrdə İrana qarşı təhdid kimi istifadə oluna bilməz".

Bu səfər İranın regionda mövcudluğunu təsdiqləmək və maraqlarını müzakirə etmək məqsədi daşıyır. Pezeşkian prezident seçildikdən sonra Rusiya və Azərbaycan da daxil olmaqla bir neçə ölkəyə səfər edib. İndi isə ilk dəfə Ermənistana gedəcək. Azərbaycan regionda öz mövqelərini qoruyur. İranla münasibətlərdə bəzi fikir ayrılıqları, xüsusilə Zəngəzur dəhlizi məsələsində fərqli yanaşmalar olsa da, Pezeşkianın səfəri Bakının mövqeyini dəyişmir. Azərbaycan qəti və prinsipial siyasət yürüdür. Əsas qiymətləndirmə səfərdən sonra məlum olacaq. Unutmayaq ki, İranda prezidentdən də üstün olan dini lider var və onun mövqeyi də önəmlidir. Hər şey tam şəkildə bundan sonra aydınlaşacaq.

Bəs Azərbaycan kökənli Pezeşkian Ermənistana əsas hansı mesajı aparır?

Ana Vətən Partiyasının sədr müavini, deputat Günay Ağamalı "Yeni Müsavat"a bildirdi ki, İran Prezidenti Məsud Pezeşkianın Ermənistana planlaşdırılan səfəri regionda baş verən mühüm siyasi proseslər fonunda diqqətlə izlənilən bir hadisədir: "Rəsmi Bakı hər bir dövlətin, xüsusilə, qonşu ölkələrin Azərbaycanın maraqlarına zidd olmayan istənilən suveren xarici siyasət yürütmək hüququna hörmətlə yanaşır. Bu kontekstdə, regionda atılan hər bir addımın sülhə, təhlükəsizliyə və əməkdaşlığa xidmət etməsi vacibdir. Pezeşkianın İrəvana səfərinin konturlarını müəyyən etmək üçün, ilk növbədə prezident postunun İranın siyasi mühitindəki roluna diqqət etmək lazımdır. Məsud Pezeşkian İranın prezidenti olsa da, bütün siyasi qərarlar məhz ali dini lider tərəfindən verilir. Bu baxımından prezident Məsud Pezeşkianın Ermənistana səfəri və səfər çərçivəsində səsləndirəcəyi mənfi və yaxud müsbət fikirlər bütünlüklə İranın mövqeyini əks etdirməyə bilər. Təbii ki, İran prezidentinin İrəvana səfərinin əsas məqsədi Azərbaycan və Ermənistan arasında müsbət dinamika ilə müşayiət olunan sülh gündəliyi və bunun fonunda Zəngəzur dəhlizi ilə bağlı Tehranın ritorikasını əks etdirməkdir. Aydındır ki, İran Zəngəzur dəhlizinin reallaşdırılmasına müsbət yanaşmır. Lakin indiki şəraitdə rəsmi Tehranın mövcud proseslərə təsir etmək imkanları demək olar ki, yox səviyyəsindədir. Bütün bunlara baxmayaraq Azərbaycan dövləti sülh gündəliyinə və qarşılıqlı hörmət prinsipləri əsasında regional əməkdaşlığa sadiqdir. Bizim üçün əsas məsələ, regionda real və davamlı sülhün təmin olunmasıdır. İran rəhbərliyindən gözləntimiz isə odur ki, Ermənistanla təmaslarında bu istiqamətdə konstruktiv mövqe nümayiş etdirsin və bölgədə separatizmə, revanşizmə zəmin yaradan ritorikadan uzaq dursun".

Siyasi analitik Asif Nərimanlı hesab edir ki, Ermənistan bu regionda cənub qonşumuz üçün platforma rolunu oynayır: "Pezeşkianın Ermənistana səfəri İranın İsraillə müharibədən sonra qonşularla münasibətlərini yenidən gözdən keçirmək və əlaqələri sıxlaşdırmaq siyasətindən qaynaqlanır. Lakin Ermənistan bu prosesdə İran üçün Cənubi Qafqazdakı proseslərdə yer almaq üçün istifadə olunan platforma rolunu da oynayır, xüsusilə Zəngəzur dəhlizinin gələcəyi fonunda. Pezeşkian daha öncə Zəngəzur dəhlizi ilə bağlı verdiyi açıqlamalarda loyal mövqe sergiləsə də, İranın regionla bağlı planı dəyişməyib və bu ölkənin prezidenti də bu plandan kənara çıxa bilməz. Fikrimcə, Pezeşkian Ermənistanda Zəngəzur dəhlizi ətrafında baş verənləri və İranın mövqelərinin qorunması ilə bağlı müzakirələr aparmaq niyyətindədir. Regional kommunikasiyanın Tramp planına uyğun açılacağı gözləntisi var. Lakin bununla bağlı razılaşma olsa belə, razılaşmanın praktiki müstəvidə icrası sonrakı mərhələdir və regional oyunçular - Rusiya və İran bu mərhələdə proseslərə müdaxilə etməyə, öz mövqelərini bu və ya digər formada qorumağa çalışacaqlar. Pezeşkianın Ermənistan səfəri də İranın Cənubi Qafqazda gələcək yerini müəyyən etməyə hesablanıb".

❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"

# İranda oğurlanan təbrizli müğənni - Pezeşkian qarışmalı

## ETTELAAT-a çağırılan güneyli xanım sənətçidən heç bir məlumat yoxdur - Bakıdan çağırış

**ETTELAAT-ın Təbrizdəki şöbəsinə çağırılan güneyli xanım müğənni Aşqın İmamidən heç bir məlumat yoxdur. Axar.az xəbər verir ki, bu barədə sənətçinin ailəsi məlumat yayıb.**

Məlumata görə, sənətçinin İnstaqram səhifəsində bütün yazılar silinib, istifadəçi adı və profil şəkli təhlükəsizlik orqanları tərəfindən dəyişdirilib.

Hələlik xanımın həbsinin səbəbləri, onun saxlanıldığı yer və ona qarşı irəli sürülən mümkün ittihamlar barədə dəqiq məlumat yoxdur. Bir neçə gün əvvəl təhlükəsizlik qüvvələri məhkəmə qərarı göstərmədən xanım İmaminin evində axtarış aparıb, onun bəzi şəxsi əşyalarını, o cümlədən mobil telefonunu və noutbukunu müsadirə ediblər.

Qeyd edək ki, Azərbaycan mahnıları və musiqilərinin ifaçısı Aşqın İmami həm də virtual məkanda Azərbaycan dili kursları keçirir. Bu, son 1 il ərzində Aşqın İmaminin evinə ikinci hücumdur.

İranın təbrizli prezidenti Məsud Pezeşkian həmyerlisini, bir sənət adamını xilas edə bilərmi? Tehrandakı rejim sənət adamlarına nə üçün basqı edir?

Mövzu ilə bağlı Azərbaycan Yazıçılar Birliyinin Güney Azərbaycan şöbəsinin rəhbəri Sayman Aruz "Yeni Müsavat"a danışıb: "Onu qeyd edim ki, Aşqın xanımı illərdir tanıyıram, onun fəaliyyəti ilə yaxından tanışam, gözəl səsi və mədəni fəaliyyəti ilə də yaxından tanışam. O, uzun illərdir ki, səsi və fəaliyyəti ilə Azərbaycan mədəniyyətini yaşatmağa və təbliğ etməyə çalışır. Mənə elə gəlir ki, Aşqın xanım o taylı-bu taylı xanımlar üçün nümunə ola biləcək bir şəxsiyyətdir.

Çox təəssüf ki, bu xəbəri eşitdim. Aşqın xanım bir müddətdir İran təhlükəsizlik qüvvələri tərəfindən oğurlanıb və hazırda ondan heç bir xəbər yoxdur. Hesab edirəm ki, bu, fars molla hakimiyyətinin Azərbaycan və türk xalqına, türk mədəniyyətinə olan nifrətinin bariz nümunəsidir. Çünki bu gün sırf mədəni fəaliyyətlə məşğul olan insanlara qarşı belə aqressiya nümayiş etdirilir.

Bu isə artıq həmin rejimin həm dünya ictimaiyyəti, həm də İran xalqı qarşısında iflasının və süqutunun göstəricisidir. Üzümü Azərbaycan cəmiyyətinin səsi ilə prezident seçilən Məsud Pezeşkiana tuturam: nə qədər ki, gec deyil, İranda heç bir əsaslı səbəb olmadan həbsdə saxlanılan soydaşlarımızın azadlığı və təhlükəsizliyi üçün kifayət qədər cəsarətli və təsirli addımlar atsın. Artıq zamanıdır ki, Pezeşkian özünü həm humanist, həm də türk prezidenti kimi göstərsin.

Bu gün İran zindanlarında sayca yüzlərlə soydaşımız var ki, onların nə həbsi, nə də həbslərinin səbəbləri bəllidir. Onlar məhkəmələrə vəkilsiz çıxarılır, heç bir hüquqi əsası olmayan ittihamlarla mühakimə olunurlar. Uzun müddətli həbs cəzaları ilə cəzalandırılır, təhsil aldıqları universitetlərdən uzaqlaşdırılır, həyat və iqtisadi fəaliyyətləri tamamilə iflic edilir.



Aşqın İmami

Beləliklə, Azərbaycanlıların düşünən beyinlərini bu şəkildə neytrallaşdırmağa çalışırlar. Ona görə də bu gün Pezeşkianın üzərinə böyük məsuliyyət düşür. Mən çağırış edirəm ki, Pezeşkian Azərbaycan cəmiyyətinin səsini eşitsin və Aşqın xanım başda olmaqla bütün məhbusların azadlığı üçün zəruri addımlar atsın".

Sayman Aruz mədəniyyət xadimlərinə və ziyalılara da səslənib: "Sənət adamları cəmiyyətin düşünən beyinləridir. Onları hədəfə almaq cəmiyyətin təfəkkürünü məhdudlaşdırmaq, düşüncəni zəncirləmək deməkdir. Fars molla rejimi illərdir ki, məhz yazıçıları, ozanları, tarixçiləri, araşdırmaçıları və digər dəyərli ziyalılarımızı hədəfə alır.

Bu gün İranın həbsxanalarında olan soydaşlarımızın böyük əksəriyyəti məhz bu kateqoriyaya daxildir. Təsadüfi deyil ki, Cənubi Azərbaycanda Azərbaycan dili yasaqlanıb və təhsil müəssisələrində tədris olunmur. Bütün bunlar xalqımızı öz dilindən, kimliyindən, mədəniyyətindən və tarixindən uzaqlaşdırmaq, onu idarəolunan bir toplum halına salmaq məqsədi daşıyır.

Ona görə də ziyalılarımızı çağırıram - bu mübarizəyə qoşulun, haqlı tələblərinizi ortaya qoyun. Seçdiyiniz prezidentdən tələb edin ki, milli-mədəni sahədə fəaliyyət göstərən, lakin əsassız səbəblərlə həbsdə saxlanılan aktivistlərimizin azadlığı üçün əməli tədbirlər görsün. Bu həm də Pezeşkianın Azərbaycan cəmiyyətinin etimadını bir daha qazanması demək olacaq".

❑ Xalidə GƏRAY,
"Yeni Müsavat"

# Moskvadan Bakıya terror təhdidi - Reaksiya

## "Birinci Kanal"ın təbliğatçısının "Azərbaycanı dayandırın" çağırışı nədən xəbər verir?

**"Birinci Kanal"ın təbliğatçısı Ruslan Ostaşko açıq şəkildə bildirib ki, Odessa vilayətində yerləşən "Orlovka" kompressor stansiyasına endirilən zərbə "Moskvadan Bakıya siqnaldır".**

Musavat.com xəbər verir ki, bu barədə "Minval - LIVE"



Telegram kanalı məlumat yayıb. Onun sözlərinə görə, "Azərbaycanın Rusiyadan yan keçərək, hətta mövcud infrastrukturdan istifadə etməklə təchizat qurmaq cəhdləri dayanmalıdır".

Bu sözlər faktiki olaraq Kremlin terroru siyasi alətə çevirdiyini etiraf etməsi deməkdir.

Bu, Rusiyanın media təmsilçiləri vasitəsilə Azərbaycanın müstəqil enerji siyasətini və Qərblə əməkdaşlıq hüququnu hədəfə alması, ölkəmizə açıq təhdidlər yönəltməsidir.

Ostaşkonun açıqlamaları sadəcə həyasızlıq deyil, bu, dövlət terrorizminə ideoloji bəraət verməyə cəhddir. Kreml bir daha sübut edir ki, qonşularına qarşı münasibətdə özünü sivil dövlət kimi deyil, silahlı dəstəyə çevrilmiş bir qurum kimi aparır, hansı ki, başqa dövlətlərə necə və kimlə ticarət etməyi diktə etməyə çalışır.

Rusiya artıq zorakılıq, şantaj və xaos üzərində qurulmuş, keçmiş imperiya xülyasından əl çəkməyən bir sistemə çevrilib. Azərbaycan isə bu qurumdan gələn heç bir "siqnalı" qəbul etmir və heç vaxt da qəbul etməyəcək.

Göründüyü kimi, Azərbaycanı dayandırmağa çağırışlar səslənir və hətta terror, təhdidlə ölkəni şantaj etmək istəkləri var. Lakin Rusiya Cənubi Qafqazdakı mövqeyini itirməkdə olduğunu özü də dərk etməkdədir.

Xatırladaq ki, Rusiyanın Ukraynaya qarşı müharibə başlatmasından sonra Azərbaycan Avropa məkanında bir qaz ölkəsi kimi daha çox diqqət cəlb etməyə başlayıb. Sergey Koretski də qeyd edir ki, indiki halda Azərbaycan qazının Ukraynaya tədarükü - uzunmüddətli əməkdaşlığa yol açan strateji addımdır.

"Birinci Kanal"ın təbliğatçısı Ruslan Ostaşkonun "Azərbaycanın Rusiyadan yan keçərək, hətta mövcud infrastrukturdan istifadə etməklə təchizat qurmaq cəhdləri dayanmalıdır" çağırışı nədən xəbər verir?

AĞ Partiya başqanı Tural Abbaslı "Yeni Müsavat"a açıqlamasında mövcud durumdan qəti narahat olmadığını vurğuladı: "Müxtəlif jurnalistlərin, yaxud Kremlin təbliğatçılarının, yaxud da başıboş millət vəkillərinin Azərbaycana qarşı bəyanatları, çağırışları Rusiyanın aqoniyada olmasının göstəricisidir. Artıq Cənubi Qafqazda Azərbaycanı itirdiklərini özləri də dərk edirlər. Ona görə də, hədə-qorxu, təhdid dili ilə danışmağa çalışırlar. Bu da təbii ki, qəbul olunası məsələ deyil. Azərbaycan 2023-cü ildə öz suverenliyini tam bərpa edəndən sonra nəinki Rusiyanın, nə Amerikanın, nə də dünyanın heç bir ölkəsi bizimlə diktə dili ilə danışa bilməz. Sadəcə ruslar bizi qorxutmağa çalışırlar. Burada isə, duruşumuz möhkəm olmalıdır. Geriyə doğru heç bir addım atmaq olmaz. Çünki Rusiya qan iyisi hiss etsə, daha da o qana doğru hərəkət edəcək. Onun üçün də Azərbaycan mövqeyini dəyişməməlidir. Azərbaycanın əsas hədəfi özünün milli dövlət və xalq maraqları olmalıdır. Rusiya və digər ölkələr də bilməlidir ki, Azərbaycanın əsas strateji hədəfi özünün və xalqının rifahıdır. Əgər kimsə Azərbaycanla əməkdaşlıq etmək istəsə, bu faktoru nəzərə almalıdır. Əks halda təhdid, şantaj dili ilə nəyəsə nail olmaq olmaz. Rusiyanın Ukraynada apardığı savaş, dünyada təklənməsi fonunda yeni bir cəbhə açmaq Kremlə heç cür sərf etməz. Onun üçün də bu təhdidlər sadəcə söz yığınıdır. Bu təhdidlər elə təhdid olaraq da qalacaq. Onun üçün də belə fikirləri ciddiyə almıram. Əminəm ki, yaxın zamanlarda Rusiyanın siyasi elitası Azərbaycana qarşı yürütdüyü siyasətin yanlış olduğunu dərk edəcək və nəhayət ki, Azərbaycanla doğru münasibətlər qurmağa çalışacaqlar".

Siyasi təhlilçi Sona Əliyevanın sözlərinə görə, hazırda Rusiya və Azərbaycan arasındakı gərginlik son 34 ilin ən çətin dönəmi kimi xarakterizə oluna bilər: "Kremlin imperialist düşüncəsi rəsmi Bakıdan da yan keçmir. Rusiya hazırda bütün dünyada neo-totalitarizmin yeni mərkəzi kimi tanınır. Görünən odur ki, Putin Rusiyası bütün keçmiş SSRİ dövlətlərini yenidən öz qanlı caynaqları arasına yığmağa çalışır. Amma Moskva bir şeyi unudur, artıq Azərbaycan 35 il öncəki sovet Azərbaycanı deyil. İndi bütün dünya liderləri Azərbaycanın dövlət başçısı ilə hesablaşır. Üstəlik, Kremldə başa düşürlər ki, Azərbaycan heç Ukrayna da deyil və Bakıya bu və ya digər formada hər hansı bir müdaxilə üçüncü dünya savaşına qədər gətirib çıxara bilər. Çünki Azərbaycan bütün dünyanın ən təhlükəsiz ticarət yolunun mərkəzində yerləşir. Pekindən Çinə qədər uzanan 21-ci əsrin "İpək yolu" məhz buradan keçəcək. Söhbət "Bir kəmər - bir yol" kimi meqa layihədən gedir. Rusiyanı qıcıqlandıran da elə budur. Böyük güclər Putin rejimini bütün oyunlardan və gedişlərdən kənarda qoyurlar. Şimal və Cənub yolu artıq öz işləkliyini itirir. İndi dünyanın bütün iqtisadi beyin mərkəzləri Orta dəhlizə fokuslanıb. Bu dəhliz Orta Asiyanı Türkiyə və Azərbaycanla bağlayan unikal platformadadır. Rusiya həm də buna görə Azərbaycana qəzəblidir. Moskvada anlayırlar ki, Zəngəzur dəhlizinin açılması və "Bir kəmər-bir yol" layihəsinin işə düşməsi ilə təkcə Azərbaycan yox, bütün Orta Asiya dövlətləri Rusiyanın təsir dairəsindən uzaqlaşacaq. Kreml isə bunu həzm edə bilmir. Rəsmi Bakının bütün tərəfdaşları ilə məsafəli və etibarlı əməkdaşlığı Azərbaycana çox güclü dostlar qazandırıb. Rusiyanın Azərbaycanı müharibə ilə təhdid etməsinin arxasında həm də ABŞ-da Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanma sənədinin imzalanması məsələsidir. Rusiya özü yaratdığı münaqişəni özü "bitirə" bilmədi. Onun həqiqi həlli Birləşmiş Ştatların vasitəçiliyi ilə gerçəkləşdi. İstənilən halda, Rusiya Azərbaycana qarşı real savaş aça bilməz. Bu, Kremlin Güney Qafqazdan və Orta Asiyadan tamamilə uzaqlaşmasına gətirib çıxaracaq".

❑ **Cavanşir ABBASLI,
"Yeni Müsavat"**



## AZAL-dan vurulan təyyarəmizlə bağlı yeni açıqlama

**"İlkin nəticələr Aktauda qəzaya uğrayan təyyarəyə kənardan müdaxilə edildiyini təsdiqləyib".**

Bunu "Report"a açıqlamasında avqustun 8-də Milli Qəhrəman Hökumə Əliyevanın doğum günü münasibətilə Samux rayonunda keçirilən tədbirdə iştirak edən AZAL-ın vitse-prezidenti İlham Əmirov deyib.

O, H.Əliyeva ilə yanaşı, qəzaya uğrayan təyyarənin uçuş heyətinin bütün üzvlərinin qəhrəmanlıq göstərdiklərini qeyd edib:

"Bu gün özü olmadan doğum gününü qeyd etdiyimiz Milli Qəhrəman Hökumə Əliyeva, həqiqətən, böyük qəhrəmanlıq göstərib. AZAL-a məxsus sərnişin təyyarəsinin havada ciddi zərər görməyinə baxmayaraq, uçuş heyəti böyük fədakarlıq göstərərək mümkün qədər az itki ilə təyyarəni idarə edə biliblər.

İdarəetməsi çətinləşən təyyarəni 1 saat 10 dəqiqə havada saxlamaq böyük peşəkarlıq tələb edir. Ona görə də heyət üzvlərinin qəhrəmanlığı qeyd olunmalıdır.

Həmin təyyarənin qəzaya uğraması ilə bağlı təhqiqat davam edir. Lakin təhqiqatı aparan komissiyanın ilkin nəticələri təyyarəyə kənardan müdaxilə edildiyini təsdiqləyib".

Qeyd edək ki, AZAL-ın Bakıdan Qroznıya uçan sərnişin təyyarəsi 2024-cü il dekabrın 25-də Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğrayıb. Qəza nəticəsində təyyarənin göyərtəsində olan 67 nəfərdən 38-i ölüb, 29-u sağ qalıb.

## ABŞ-la imzalanan yeni sənəd ölkəmizə nə verəcək? - Rəy



**"SOCAR ilə "ExxonMobil" arasında imzalanan əməkdaşlıq memorandumu həm Azərbaycanın enerji strategiyası, həm də dünya enerji bazarlarında mövqeyi baxımından ciddi strateji və maliyyə nəticələri vəd edir".**

Musavat.com bildirir ki, bu barədə iqtisadçı Eyyub Kərimli deyib.

İqtisadçı qeyd edib ki, avqustun 7-də Vaşinqtonda Prezident İlham Əliyevin iştirakı ilə imzalanan bu sənəd Azərbaycanın enerji diplomatiyasında yeni mərhələnin başlanğıcını göstərir:

"Mərasimdə ABŞ prezidentinin xüsusi elçisi Stiv Vitkoffun iştirakı bu əməkdaşlığın təkcə korporativ deyil, həm də strateji-siyasi əhəmiyyət daşıdığını göstərir.

"ExxonMobil" dünyanın ən böyük və ən nüfuzlu enerji şirkətlərindən biridir. Onunla əməkdaşlıq yalnız texnoloji və maliyyə dəstəyi deyil, eyni zamanda beynəlxalq enerji bazarlarında geosiyasi çəki deməkdir.

"ExxonMobil" ilə əməkdaşlıq SOCAR-a dərin qazma, neft-kimya texnologiyaları və alternativ enerji sahələrində texniki biliklər və təcrübə qazandıracaq. Bu, xüsusilə dəniz yataqlarının işlənməsi və karbonsuz texnologiyalara keçid baxımından önəmlidir.

"ExxonMobil"in sərmayəsi SOCAR-ın iri enerji layihələrində maliyyə yükünü bölüşdürməyə imkan verəcək. Azərbaycanın enerji sektoruna xarici kapital axını artır ki, bu da dövlət büdcəsinə və Neft Fonduna gəlirləri artırır.

Yüksək riskli layihələrdə "ExxonMobil" kimi tərəfdaş şirkətin iştirakı SOCAR üçün kommersiya risklərini azaldır. Bundan sonra digər transmilli şirkətlərin Azərbaycana marağı da arta bilər (məsələn, "Chevron", BP-nin yeni istiqamətləri və s.).

"ExxonMobil" ilə əməkdaşlıq Azərbaycanın Avropa və Asiya bazarlarında etibarlı tərəfdaş statusunu gücləndirir. Bu, xüsusilə "yaşıl enerji keçidi" dönəmində təmiz texnologiyaların tətbiqində önəm daşıyır.

ABŞ-la strateji enerji əməkdaşlığı Azərbaycanın transatlantik enerji dialoqunda yerini möhkəmləndirir. Regionda Azərbaycanın geosiyasi əhəmiyyəti artır, çünki Qafqazda sabit enerji axını Qərb üçün kritik əhəmiyyət daşıyır.

"ExxonMobil" ilə imzalanan memorandum Azərbaycanın enerji sektorunda yeni mərhələyə keçidini simvolizə edir - bu, sadəcə birgə layihə deyil, ölkənin iqtisadi, texnoloji və geosiyasi gələcəyini formalaşdıracaq strateji platformadır.

Bu cür əməkdaşlıqlar SOCAR-ı regional oyunçudan qlobal enerji tərəfdaşına çevirə bilər. Azərbaycanın enerji siyasətində ABŞ ilə sıx əməkdaşlıq eyni zamanda Avropa və Asiya bazarlarında etibarlı, balanslı və çevik mövqe təmin edəcək".

❑ **Musavat.com**



# Bir ton pul

Zamin HACI
zaminhaci@gmail.com

**Əski məmurlarımızdan birinin 170 milyon manatı ölkədən çıxarıb İspaniyada kef elədiyini yazmışdılar, o da bunu qətiyyətlə təkzib etdi, dedi mən ora yalnız müalicə üçün gedirəm, hazırda İsmayıllıda bağdayam, ordan Şüvəlanda bağa gedəcəyəm, sizi Allaha tapşırıram, ümumiyyətlə, bizdə qanun-qayda var, heç kim o qədər pulu ölkədən çıxarıb apara bilməz.**

Allaha tapşırılmaq, İspaniyada müalicə və bağlarda istirahət mövzusuna toxunmaq istəmirəm, ancaq 170 milyonu ölkədən çıxarmaq məsələsində müəllim ciddi səhv edir. Bizdə ondan da çox pulu qapazlayıb aparanlar olmuşdur. Məsələn, bir nəfər var idi, 9 milyard dolları müdir qoyulduğu bankdan əkişdirmişdi, bu ittihamla 9 ildir içəridədir, hələ əfvə düşməsə 5-6 il də yatmalıdır. Ancaq onun türmədə olduğu müddətdə övrəti boş dayanmır, Londonda hər dəfə dükandan bir neçə milyonluq alver eləməklə ingilis mətbuatına minlərlə funt qonorarlıq tema verir.

Məbləği görməmişik, əlbəttə, amma riyazi olaraq maraqlı rəqəmdir. 170 milyonu dollara çevirəndə 100 milyon dollar edir. 1 milyon dollar 10 kilodur, deməli müəllimə 1 ton pulu ölkədən aparmaq lazım olardı. Bir Boinq-747 100 ton yük daşıya bilir. Deməli dəyərli məmurumuz (ən azı 100 milyon dəyərindədir) istəsə bunu çox asanlıqla edər. Və ya etmişdir.

Ancaq başqasının pulunu saymağa uca millətimiz pis baxır, lap o pulu özünün cibindən əkişdirsələr belə, ona görə biz də bu faydasız məşğuliyyəti dayandırıb keçək başqa temaya. Keçən yazılarımızda da əslində bu riyaziyyat mövzularının bizdə çox anomaliyaya uğradığını göstərmişik. Məsələn, birdən görürsən hökumət sertifikasiya imtahanı nəticəsində 7 min müəllimlə əmək müqaviləsinə son qoyulduğunu elan edir, lakin vakant yerlər açıqlananda məlum olur rayonların çoxunda müəllimlər üçün boş, vakant yerlər yoxdur. Gəl indi burdan nəsə anla. Müəllimlərimiz də anlamaqda çətinlik çəkir, nazirliyin önünə gedib ağlaşırlar. Halbuki, məktəb sektorumuzda bu tip hadisələrə dəfələrlə rast gəlirdik. Mən özüm neçə dəfə qədim zamanlarda məktəbdə seçki müşahidəçisi olanda bunu canlı müşahidə eləmişəm: görürdün seçkiyə siyahıda olan, misal üçün, 1200 seçicidən cəmi 300 nəfəri gəlib, lakin axırda deputat 1500 nəfərin səsi ilə seçilmişdir. Bu necə olurdu, heç Məzahir müəllim də anlamırdı. Əgər siz elmi fantastika janrının azarkeşisinizsə bu temada Aleks Qarlend-in "Annihilation" (2014) filminə baxmaq, Struqatski qardaşlarının 1972-ci ildə yazdığı "Yolqırağı piknik" uzun hekayəsini oxumaq məsləhətdir.

Maraqlıdır ki, elm-təhsil sahəmizdə belə anomaliyalara çox rast gəlirik, tərsinə olmalıydı məntiqlə. Birdən görürsən hansısa regional təhsil idarəsində 77 direktora cəza verildiyi açıqlanır, təəccüb edirsən, çünki hətta oturub bir-bir, kəndbəkənd sayanda orada 60-dan artıq məktəb çıxmır. Bəs qalan məktəblər hardandır?

Bugünlərdə jurnalistika ixtisasına qəbul olunmaq istəyən "xoşbəxt abituriyentlər" (bizim əlimiz bala batıb, gəlin) qabiliyyət imtahanı veriblər, esse yazıblar. Yeri gəlmişkən, bu imtahanın nə qədər mənasız və absurd olduğunu hamı bilir, çünki nədənsə başqa sənətlərdə belə imtahan götürmürlər. Misal üçün, biz tələb edirik travmatoloq olmaq istəyənlər də universitetə girmək üçün kiminsə sınıq barmağına dərman eləsinlər, ən azı bir qurbağa qarnı yarsınlar. Mühəndis olmaq istəyən sement qarışdırsın, nə bilim, müəllim olmaq fikrindəsənsə bir neçə şuluq uşağı şapalaqla və sairə. Yoxsa niyə jurnalistlər əvvəldən repressiya ilə üzləşir? Nəsə, çox dərinə getməyək, çünki məsul yoldaşlar qabiliyyət imtahanında əslində hamını yola verirlər. Buyurun, statistika: 4 avqustdakı qabiliyyət imtahanında iştirak hüququnu 1071 abituriyent qazanıb. 253 nəfər imtahana gəlməyib (necə uzaqgörən uşaqlardır!), 745 nəfər "məqbul" qiyməti alıb. 1071-253=818 edir. Belə çıxır "qabiliyyət"dən cəmi 73 nəfər keçməyib.

Öz aramızdır, yenə başqa temaya keçə bilmədik.



# İrandan Azərbaycana daha bir absurd ittiham - Cavab gecikmədi

## Tehran Bakıya böhtan atmaqdan əl çəkmir; **Aydın Mirzəzadə:** "Münasibətlərin bu cür olması cənub qonşumuz üçün ziyanlıdır"

**İran Ali Rəhbərinin Təbrizdəki "Aşura" Korpusundakı nümayəndəsi Əbdolərəhim Sarai Azərbaycana qarşı şər-böhtanla çıxış edib. "Tasnim" xəbər verir ki, o, İsrailin Azərbaycan üzərində "tam hökmran" olduğunu iddia edib.**

Sarainin sözlərinə görə, "sionist rejim"in Azərbaycanda geniş şəkildə mövcudluğu ölkənin, eləcə də qonşu dövlətlərin təhlükəsizliyi və müstəqilliyinə təhlükə yaradır. O, İsraildən gələn təyyarələrin guya vaxtaşırı İran sərhədi yaxınlığında tikilmiş hava limanına (ehtimal ki, Füzuli hava limanı nəzərdə tutulur - red.) getməsinə diqqət çəkib.

"Bu aydın və birmənalı mövcudluq sionist rejimin Azərbaycan Respublikası üzərində tam hökmranlığına dəlalət edir", - Xameneinin nümayəndəsi iddia edib və hakimiyyəti və xalqı məsələyə diqqəti artırmağa çağırıb.

Onun fikrincə, bu təsir İslam ölkələrinin maraqlarını zəiflətməyə yönəlib. "İran öz təhlükəsizliyini və ərazi bütövlüyünü qorumağa həmişə böyük əhəmiyyət verib və istənilən dağıdıcı hərəkətlərə qarşı çıxacaq" - xoflu məmur əlavə edib. İranın rəsmi səviyyədə bu cür ittihamları nə qədər çəkəcək? Tehran bununla nəyə nail olmaq istəyir?

Azərbaycan-İran parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Aydın Mirzəzadə "Yeni Müsavat"a bildirdi ki, münasibətlərin bu cür olması sadəcə cənub qonşumuz üçün ziyanlıdır: "İranda xarici siyasətə məsul olmayan şəxslərin vaxtaşırı İranın xarici siyasəti ilə bağlı mövqe bildirmələri çox böyük təəccüb doğurur. Ali rəhbərin korpusdakı nümayəndəsinin xarici siyasətlə nə əlaqəsi var? İranın xarici siyasətini ali rəhbər, prezident və xarici işlər naziri müəyyən edir. Bunlar də ölkələrinin bu və ya digər xarici dövlətlərlə münasibətlərinə rəy bildirirlər. İran prezidenti Azərbaycanla münasibətlərin yüksək səviyyədə olması ilə bağlı arzusunu ifadə edib. Bu istiqamətdə də işlər gedir. İranın hansısa bir hərbi dairədən olan nümayəndəsinin Azərbaycanın daxili işlərinə qarışmağa yönəlik fikir bildirməsinə hesab edirəm ki, ilk növbədə, bu ölkənin hakimiyyət orqanlarının artıq münasibət bildirməsi lazımdır. Ölkələrarası münasibətlərin birinci şərti bir-birinin daxili işlərinə qarışmamaqdır. Azərbaycan heç zaman İran hökumətinin digər ölkələrlə münasibətinə nə rəsmi şəkildə, nə də ayrı-ayrı politoloqların dili ilə mövqe bildirməyib. Bunu etikadan kənar hesab edirik. Azərbaycanın kimlə yaxşı münasibətdə olacağı, kiminlə yaxşı əlaqələr quracağı daxili işimizdir. Milli maraqlarımıza uyğun olaraq da belə hərəkət edirik. Digər tərəfdən olmayan bir məsələni zorla Azərbaycanın üzərinə atma cəhdinin özü çox qəribə görünür. Rəsmi Bakı dəfələrlə bildirib ki, Azərbaycan ərazisindən digər ölkələrə qarşı heç zaman istifadə edilmir və edilməyəcək də. Çox istərdim ki, bəyanat verərkən ilk növbədə, reallıqları nəzərə alsınlar. Əks halda Azərbaycan-İran münasibətlərini pozmağa çalışırlarsa, o zaman sual olunur, münasibətlərin pozulması ilk növbədə, kimə ziyan vuracaq?"

AMİP sədrinin beynəlxalq əlaqələr üzrə müavini Elşən Mustafayev qeyd etdi ki, İranda Ali Dini Şuraya yaxın mühafizəkar qanadın Azərbaycan əleyhinə müxtəlif ittiham səsləndirmələri ilk hadisə deyil: "Bu ilin əvvəllərindən müxtəlif ittihamlar daha intensiv hal alıb. Amma məsələ ondadır ki, İranda Azərbaycana qarşı belə münasibətin əleyhinə olan siyasətçilər də mövcuddur. O başqa məsələdir ki, bu fərqli yanaşmalar münasibətləri kökündən qopartmamaq üçün razılaşdırılmış plan da ola bilər. Doğrudan da Azərbaycana qarşı qərəzli münasibətin iki dövlətin gələcək əməkdaşlığına ciddi ziyan vuracağını səmimi düşünənlərin olması da mövcuddur. Hətta məlum mühafizəkar qanadın təmsilçilərinin İran prezidenti Məsud Pezeşkianı Azərbaycana səfərinə görə tənqid atəşinə tutduqlarını bu yaxınlarda görmüşük. Hesab edirəm ki, bizə qarşı olan bəyanatlar ilk növbədə Qarabağı tamamilə azad etdikdən sonra regionda güc mərkəzinə çevrilməz, Ermənistanla sülh müqaviləsi danışıqlarının müsbət sonluğa doğru getməsi, bu proseslərin gedişatında Zəngəzur dəhlizinin açılmasının artıq real görünməsi səbəbindəndir. Yəni hazırkı vəziyyətdə Azərbaycanın siyasi və iqtisadi müstəqilliyinin gücləməsi, kənardan çox cəlbedici görünməsi, əvəzində İranda iqtisadi çöküşün günü- gündən artması daxildə siyasi gərginliyin artmasına səbəb ola bilər. 44 günlük müharibədən sonra bu günlərə qədər dəhlizin açılmamasının özlərinin xidməti olduqlarını deyənlər son günlər panik vəziyyətdədirlər. Bütün bunlardan dolayı Azərbaycanın İran vətəndaşları arasında qalxan nüfuzuna xələl gətirmə cəhdləri yalnız İsraillə əməkdaşlığımızı qabartmaqda görürlər. Halbuki, artıq bu təbliğat da işləmir. Bu günlərdə prezident Məsud Pezeşkianın oğlunun aparılan təbliğatın, Azərbaycana qarşı ittihamların yanlış olduğunu söyləməsi və fəaliyyətin ancaq dostluq istiqamətində olması çağırışları qərəzli fikirlərin əleyhinə tutarlı cavab idi. Bu bəyanat İran xalqı arasında ciddi dəstək qazandı. Bütün bunlara baxmayaraq reallıqları görmək istəməyən qüvvələr İranda hələ də çoxdur. Amma onların planlarını alt-üst edəcək siyasət də ortadadır".

**❑ Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**



# Lukaşenko növbəti seçkilərdə namizəd olmayacaq

**"Volodimir Zelenski dayanmalıdır ki, Kiyev Ukraynanın paytaxtı olaraq qalsın və ölkəni itirməsin".**

Teleqraf xəbər verir ki, bunu Belarus Prezidenti Aleksandr Lukaşenko deyib.

"Ukrayna artıq ərazilər üzərində suverenliyini itirib. An etibarilə onu itirib. Əgər Zelenski onunla danışanda məni dinləsəydi, bu torpaqlar Ukraynanın bir hissəsi olardı. Bir az Donbas, əks halda hər şey Ukrayna olardı. Ona görə də keçmişə əsaslanaraq Zelenski dayanmalıdır ki, Kiyev də Ukraynanın paytaxtı olaraq qalsın. Əks halda, Ukraynanı tamamilə itirə bilərlər", - Belarus Prezidenti qeyd edib.

"Çox istərdim ki, arxamca sağlam, normal bir insan gəlsin. Hətta etiraf edirəm ki, o, bir az fərqli siyasət aparacaq. Ancaq o, heç nəyi dərhal dağıtmasın, mənim etdiyim kimi: güclülərin çiyinlərinə, əlimizdə olana arxalanaraq, sakitcə, ölkəni təkamül yolu ilə inkişaf etdirsin. Beləliklə, inqilabi dağılma olmasın", - Lukaşenko bildirib.

Belarus lideri əlavə edib ki, qarşıdakı seçkilərdə növbəti prezidentlik müddətinə namizədliyini irəli sürməyi planlaşdırmır.

"Yox, indi planlaşdırmıram, daha planlaşdırmıram", - Lukaşenko müvafiq suala cavabında qeyd edib.

YENİ MÜSAVAT
N 139 (8749) 9 avqust 2025

**ABŞ-da üç lider - İlham Əliyev, Donald Tramp və Nikol Paşinyan arasında tarixi görüş reallaşdı. Görüşdən bir gün öncə "Reuters" agentliyinin yaydığı məlumatda deyilirdi ki, Ağ Evdə Azərbaycan və Ermənistan arasında uzun müddətdir aparılan danışıqların nəticəsi olaraq çox mühüm sənəd - “Sülh çərçivə sənədi” imzalanacaq. Məlumatda həmçinin qeyd olunurdu ki, bu sənəd hələ sülh sazişi deyil, lakin sazişə hazırlıq üçün hüquqi və siyasi bazanı müəyyən edən əsaslı bir sənəd olacaq. Bu, regionda ABŞ-ın birbaşa diplomatik iradəsi və vasitəçiliyi ilə atılmış ən ciddi addım kimi qiymətləndirilir.**



# Ağ Evdə tarixi anlaşma

## Əliyev, Tramp və Paşinyan arasında əsrin görüşü reallaşdı, böyük sülh üçün “Yol xəritəsi” dəqiqləşdi - təfərrüat, gözlənti

Əldə olunan razılaşmaya əsasən, ATƏT-in 30 ildən artıq fəaliyyət göstərmiş Minsk Qrupunun mandatı və fəaliyyəti tamamilə dayandırılacaq. Bu qərar ABŞ-ın indiki administrasiyasının Tramp dövründəki “faydasız strukturların ləğvi” strategiyasının davamı kimi təqdim olunur. Minsk Qrupu faktiki olaraq artıq uzun müddətdir işləmir və indi rəsmi olaraq diplomatik tarixə çevrilir.

Ən diqqətçəkən məqam isə Zəngəzur dəhlizi ilə bağlıdır. "Reuters"in məlumatına görə, dəhlizin idarəsi və təhlükəsizliyi ABŞ-a bağlı özəl şirkətə təhvil veriləcək. Həmin dəhliz bundan sonra “Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu” - Trump Route for International Peace and Prosperity (TRIPP) adlandırılacaq. Bu ad Donald Trampın diplomatik təşəbbüsü və şəxsi nümayəndəsi Stiv Vitkoffun vasitəçiliyi ilə aparılan proseslərə simvolik töhfə kimi qəbul olunur. Ekspertlər bu addımı Zəngəzur dəhlizinin beynəlmiləlləşməsi və regionda Qərbin iştirakı ilə yeni siyasi xəritənin formalaşması kimi qiymətləndirirlər.

Bu hadisə Cənubi Qafqazda yeni dövrün başlanğıcı, Rusiya və İranın bölgədəki təsirinin zəifləməsi, Azərbaycan diplomatiyasının isə yeni uğuru kimi dəyərləndirilir. Elə Gürcüstanın sabiq prezidenti Mixail Saakaşvili də deyib ki, Vaşinqtonda çox mühüm tarixi hadisə baş verəcək və o gün dünya tarixində Qafqazın Rusiyanın caynağından azad olunma tarixi kimi qalacaq.

Maraqlıdır ki, görüşdən iki gün öncə ABŞ prezidenti Donald Trampın xüsusi nümayəndəsi Stiv Vitkoffun Putinlə Moskva görüşündə təkcə ABŞ-la siyasi münasibətləri deyil, həm də Cənubi Qafqazdakı vəziyyət və Azərbaycan-Ermənistan sülh prosesi geniş müzakirə olunub. Mənbələrin bildirdiyinə görə, Vitkoff Kreml rəhbərini Vaşinqtonda sülh təşəbbüsləri və üçtərəfli danışıqlar perspektivləri barədə məlumatlandırıb. Həmçinin Tramp administrasiyasının Azərbaycan və Ermənistan arasında gedən danışıqları dəstəklədiyi xüsusi vurğulanıb. Bildirilir ki, Vitkoff görüş zamanı Cənubi Qafqazda sabitliyin qorunmasının Tramp üçün strateji əhəmiyyət daşıdığını və bu baxımdan Bakı-İrəvan xəttində aparılan diplomatik səylərin Tramp tərəfindən yaxından izlənildiyini bildirib.

Bu prosesin davamı olaraq Azərbaycan Prezidenti İlham Əliyevin avqustun 7-də Vaşinqtonda ABŞ Prezidentinin xüsusi elçisi Stiv Vitkoff ilə görüşü olub. Əvvəlcə dövlət başçısı İlham Əliyevin və ABŞ Prezidentinin xüsusi elçisi Stiv Vitkoffun iştirakı ilə SOCAR-la “ExxonMobil” şirkəti arasında “Əməkdaşlıq haqqında Memorandum” imzalanıb. Sənədi iqtisadiyyat naziri Mikayıl Cabbarov və “ExxonMobil” şirkətinin vitse-prezidenti Con Ardill imzalayıblar.

Ardınca yayılan məlumatlardan aydın olub k, Tramp “Azadlığı Müdafiə Aktı”na 907 saylı düzəlişin icrasının dayandırılması haqqında sənəd imzalayacaq. Prezident İlham Əliyevlə amerikalı həmkarı Donald Tramp arasında qurulmuş uğurlu əməkdaşlığın nəticəsi olan bu sənəd 33 il əvvəl Azərbaycanın məruz qaldığı ədalətsizliyə son qoymuş sayılır.

Daha sonra ABŞ Dövlət Departamenti Azərbaycan və Ermənistan arasında gözlənilən sülh sazişi və Zəngəzur dəhlizi məsələsinə dair yeni açıqlama yayıb. Brifinqdə Dövlət Departamentinin mətbuat xidmətinin rəhbərinin müavini Tommi Pigott Vaşinqtonun bu prosesi yaxından izlədiyini və qətiyyətlə dəstəklədiyini bildirib. “ABŞ Prezidenti Donald Tramp və Dövlət katibi Marko Rubio dəfələrlə bu sülh sazişinin yaxın vaxtlarda imzalanacağına ümid etdiklərini bəyan ediblər. Onlar çıxışlarında bu məqama xüsusi vurğu edirlər. Dövlət katibi bu mövzunu hər fürsətdə önə çəkir”, - deyə Tommi Pigott bildirib.

Ən nəhayət, Ağ Ev lideri özü açıqlama ilə çıxış edib. “Mən Azərbaycan Prezidenti İlham Əliyevi və Ermənistanın Baş naziri Nikol Paşinyanı sabah Ağ Evdə tarixi Sülh Sammiti üçün qəbul etməyi səbirsizliklə gözləyirəm”. Tramp öz “Truth” hesabında belə yazıb. Tramp hər iki xalqın uzun illərdir ki, müharibə apardığını və bunun da minlərlə insanın ölümü ilə nəticələndiyini bildirib. “Bir çox lider bu müharibəni dayandırmağa çalışıb, amma indiyə qədər heç bir nəticə əldə olunmayıb. Bu isə ”Trump” sayəsində mümkün oldu. Mənim Administrasiyam uzun müddətdir ki, hər iki tərəflə təmasdadır. Prezident Əliyev və Baş nazir Paşinyan Ağ Evdə rəsmi sülh sazişinin imzalanması üçün mənə qoşulacaqlar", - deyə Tramp qeyd edib. O bildirib ki, Birləşmiş Ştatlar həmçinin iqtisadi imkanları birlikdə həyata keçirmək üçün hər iki ölkə ilə ikitərəfli sazişlər imzalayacaq. “Birləşmiş Ştatlar həmçinin hər iki ölkə ilə ikitərəfli sazişlər imzalayacaq ki, bu da iqtisadi imkanları birgə araşdırmağa və Cənubi Qafqaz regionunun tam potensialını ortaya çıxarmağa imkan verəcək. Mən bu cəsarətli liderlərlə Ermənistan və Azərbaycanın böyük xalqları üçün düzgün iş gördüklərinə görə çox fəxr edirəm. Bu, Ermənistan, Azərbaycan, ABŞ və dünya üçün tarixi gün olacaq”, - deyə Tramp əlavə edib.

ABŞ-nin Dövlət katibi Marko Rubio da jurnalistlərə açıqlamasında deyib ki, Azərbaycan və Ermənistan arasında saziş və sülh müqaviləsinin başlanğıcı olacaq bir razılaşma imzalanacaq. O bildirib ki, Prezident Tramp sülhə sadiqdir və buna başlamağa qərarlıdır.

Politoloq Elxan Şahinoğlunun fikrincə, Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın iştirakıyla Azərbaycan və Ermənistan liderləri arasında imzalanacaq müxtəlif sənədlərə Moskva və Tehranın reaksiyası önəmlidir: “Kreml Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın ABŞ Prezidenti Donald Trampla imzalayacaqları strateji tərəfdaşlıq sazişlərinin əleyhinə çıxa bilməyəcək. Rusiya Xarici İşlər Nazirliyinin Vaşinqtonda imzalanacaq sazişlərə qarşı açıq-aşkar bəyanat yayması ehtimalı azdır. Çünki Rusiya Prezidenti Vladimir Putinin özü Ukrayna mövzusuyla bağlı Donald Trampla sıx təmas içindədir və iki liderin yaxınlarda görüş ehtimalı var. Belə vəziyyətdə Rusiyanın ABŞ-ın Cənubi Qafqazda sülh yaratmaq təşəbbüslərinə mane olması Putinin Tramp əleyhinə siyasət yürütməsi anlamına gələr ki, Kreml sahibi buna risk etməyəcək”.

Onun sözlərinə görə, buna baxmayaraq, Kreml nəzarətindəki media və şovinist qruplar vasitəsilə ABŞ-la saziş imzalayan Azərbaycan və Ermənistan əleyhinə təbliğatı gücləndirə bilər: “Eyni ilə Tehran da birbaşa Vaşinqtondakı razılaşmaların əleyhinə çıxmayacaq. Əksinə İran Prezidenti Məsud Pezeşkian Azərbaycanla sıx əlaqələrin tərəfdarıdır”.

Siyasi ekspert Məhəmməd Əsədullazadə isə hesab edir ki, 10 noyabr sənədi fiaskoya uğradı: “Məhz bəyannamənin 9-cu bəndi Rusiyanın Cənubi Qafqazda geosiyasi mövqelərini möhkəmləndirmək və Orta dəhlizə nəzarət mexanizmini nəzərdə tuturdu. Rusiyanın Cənubi Qafqaz regionuna öz arxa bağçası kimi baxması, Azərbaycan və Ermənistan arasında sülhə imkan verməməsi proseslərin Kremlin nəzarətindən çıxması ilə nəticələndi. ABŞ Cənubi Qafqazda sülhün əldə edilməsi istiqamətində proseslərə ədalətli yanaşdı. Məhz Azərbaycan prezidenti cənab İlham Əliyevin təkliflərini Tramp məqbul hesab etdi”.

Təhlilçi Asif Nərimanlıya görə, bu, təkcə Bakı-İrəvan xəttində hadisələrin inkişafını yox, bütövlükdə Cənubi Qafqazdakı güc balansını müəyyənləşdirəcək: “Tərəflər arasındakı ziddiyyətlər, xüsusilə Ermənistan konstitusiyasının dəyişdirilməsinin açıq qalması fonunda yekun sülh sazişinin imzalanması mümkün görünmür. Lakin Vaşinqtonda sülhlə bağlı sənədin imzalanması ehtimalı böyükdür. Vaşinqton görüşü ümumilikdə Bakı-İrəvan münasibətlərinin bərpasında tarixi rol oynaya bilər, hərçənd, regionda kəskin qarşıdurmaya zəmin yarada biləcəyi də aydın görünür”.

❑ **Emil SALAMOĞLU,**
**“Yeni Müsavat”**

### “Biz tost alırıq, Bakı isə dividendlər” - erməni ekspert



Suren Surenyants

**“Azərbaycan artıq ABŞ-ın strateji tərəfdaşıdır”. Teleqraf xəbər verir ki, bunu erməni politoloq Suren Surenyants deyib. “Vaşinqtonda Azərbaycanın SOCAR və ABŞ-nin neft nəhəngi ”ExxonMobil" şirkətləri arasında əməkdaşlıq memorandumu imzalanıb. Bu, sadəcə növbəti enerji sövdələşməsi deyil, həm də siyasi siqnaldır. ABŞ Xəzər dənizinin enerji resurslarının tranziti məsələlərində Bakını strateji tərəfdaşa çevirərək Cənubi Qafqazda öz mövqelərini gücləndirir.**

Maraqlıdır ki, memorandum Zəngəzurdan keçən “Tramp yolu”nun (və ya Zəngəzur dəhlizi) tikintisinin də müzakirə edildiyi bir vaxtda imzalanır", - ekspert bildirib. Surenyants qeyd edib ki, ABŞ-ın strateji tərəfdaşına çevrilən Azərbaycan həm də Zəngəzur dəhlizi ilə bağlı hədəfinə də çatır. “Biz tost alırıq, Bakı isə konkret dividendlər”, - politoloq əlavə edib.

YENİ MÜSAVAT
N 139 (8749) 9 avqust 2025

# Metroda dəyişiklik: "28 May"dan "Dərnəgül"ə qatar getməyəcək



**Bir müddət "Bakı metropoliteni"ndən "Yaşıl" xətlərin ayrılması layihəsi çərçivəsində metronun "28 May" stansiyası qismən bağlanacağı və "28 May"dan "Dərnəgül" istiqamətində qatarların hərəkəti olmayacağı bildirilib.**

Belə ki, "Qırmızı" və "Yaşıl" xətlərin ayrılması çərçivəsində bu il "Cəfər Cabbarlı" və "Nizami" stansiyaları arasında təxminən 200 metrlik tunelin tikintisi planlaşdırılır.

Tikinti zamanı "28 May" stansiyası fəaliyyətini davam etdirəcək. Stansiya hər gün səhər saat 6-dan axşam saat 00:00-dək sərnişinləri qəbul edəcək. Sərnişinlər "Əhmədli-İçərişəhər" istiqamətində rahat hərəkət edə biləcəklər. Ümumilikdə, tikinti dövründə bu istiqamətdə qatarların hərəkətində fasilə olmayacaq.

Qatarlar tikinti dövründə də "28 May" stansiyasında dayanacaqlar və sərnişinlər "Cəfər Cabbarlı-Şah İsmayıl Xətai" istiqamətində hərəkətlərini davam etdirə biləcəklər. Yeganə məhdudiyyət "28 May-Nizami" istiqamətində olacaq. Tikinti başladıqdan sonra "28 May'"dan 'Dərnəgül' stansiyasına hərəkət edən qatarlar bu istiqamətdə hərəkət edə bilməyəcək. Həmin dövrdə sərnişinlərin bu hissədə alternativ nəqliyyatdan - avtobuslardan istifadə etməsi nəzərdə tutulur. Qatarlar yalnız "Nizami-Dərnəgül" istiqamətində hərəkət edəcək və bu marşrut üzrə sərnişin axınında maneə olmayacaq".

Bəzi media qurumları prosesin yay aylarında başlayacağını qeyd edib.

Modern.az məsələ ilə əlaqədar "Bakı Metropoliteni" ilə əlaqə saxlayıb.

Qurumdan bildirilib ki, metropolitenin inkişafı ilə bağlı həyata keçiriləcək yeni layihələr çərçivəsində "Dərnəgül" deposunun tikintisinin birinci mərhələsi başa çatdıqdan sonra xətlərin ayrılması layihəsinə başlanılacaq.

"Tikinti və texniki hazırlıq prosesi və işlərin icrası mərhələli şəkildə həyata keçiriləcək. Bu və digər məsələlər, həmçinin hərəkətin təşkili, iş rejimində tətbiq ediləcək dəyişikliklərlə bağlı ictimaiyyətə əvvəlcədən rəsmi məlumat veriləcəkdir" - deyə qurumdan qeyd olunub.



# Rusiyadan "pomidor" həmləsi - Fermerlər deyir ki...

## Şimal qonşumuz bu məhsulları qəbul etmir deyə bazarda ucuzlaşmaya səbəb olub - iqtisadçıdan təklif

**Xaçmazlı fermerlər min bir əziyyətlə əkib becərdikləri pomidor məhsullarını sata bilmirlər. Buna səbəb qiymətlərin kəskin şəkildə aşağı düşməsidir. "Xəzər-Xəbər"in hazırladığı süjetdə bu problem işıqlandırılıb. Hər il bu vaxtı bazarlarda aktivlik müşahidə edilsə də, hazırda durğunluq var. Məhsul bol olsa da, alıcı yoxdur.**

Təsərrüfat sahibləri bildirirlər ki, ötən illə müqayisədə hazırkı qiymətlər onları qane etmir. Ötən il yeşiyi 15 manata olan pomidorun indi qiyməti 5-6 manat arasında dəyişir.

Bir çox təsərrüfat sahibləri isə məhsulu bazara deyil, birbaşa ucuz qiymətə zavodlara verirlər. "Eşidirik ki, Bakıda marketlərdə 1 manat, 1,20 manatdır. Burada 30 qəpiyə alan yoxdur. Əziyyət çəkirik, 5 aydır əlləşirik, amma deyirlər ki, Rusiya bazarı bağlıdır, daxili bazarda da alan yoxdur", - deyə fermer bildirib.

Qeyd edək ki, bu ilin əvvəlindən Azərbaycan Rusiyaya 28,7 min ton pomidor tədarük edib. Hər il təqribən 200 min tona yaxın pomidor ixrac edirik və bunun əsas hissəsi Rusiyaya gedir. Rusiya bəzi hallarda bu asılılıqdan siyasi alət kimi də istifadə edir. Adətən, may ayında ixrac daha çox olurdu. Son vaxtlar Azərbaycanla Rusiya arasında yaranan siyasi narazılıqlar bu məsələdə də özünü göstərir.

"Rosselxoznadzor" Dağıstan ərazisində Azərbaycandan 152 ton məhsulun idxalına qadağa qoyub. Bundan başqa, başqa bir gömrük postunda 400 ton məhsul Azərbaycana qaytarılıb. 2023-cü ildə Azərbaycandan Rusiyaya 137.4 min ton, 2024-cü ildə isə 117.2 min ton pomidor ixrac olunub. Keçən il ümumən 438.8 ton pomidor idxal etmiş Rusiyaya ən böyük tədarükçülər Azərbaycan, Türkiyə, Türkmənistan, Ermənistan, Qazaxıstan və Özbəkistandır.

Bəli, bu məsələyə kənd təsərrüfatı mütəxəssisləri də müxtəlif aspektlərdən yanaşır və ümumiyyətlə, bu vəziyyətin həm iqtisadi, həm də strateji tərəflərinə diqqət yetirirlər. Belə mütəxəssislərin rəyində aşağıdakı əsas məsələlərə toxunulub:

Mütəxəssislər hesab edirlər ki, ilk növbədə yerli istehsalın artırılması və daha çox müxtəlif məhsulun yetişdirilməsi vacibdir. Pomidor kimi məhsullara güvənmək bir bazardan asılı olmaq riskini artırır. Onlar həmçinin, yeni məhsul növləri və tərəvəzlərə də üstünlük verilməsini, həmçinin heyvandarlıq sahəsində inkişafı təklif edirlər. Bu cür şaxələndirilmiş təsərrüfatlar, bazar çöküşləri və idxal qadağaları zamanı daha dayanıqlı olur. Eyni zamanda, Azərbaycan üçün yeni bazarların araşdırılmasının vacibliyi vurğulanır. Rusiya bazarına olan asılılığı azaltmaq üçün daha çox Türkiyə, Yaxın Şərq və Asiya bazarlarına diqqət yetirmək lazımdır.

Bu regionların tələbatı artan məhsullar üçün əlverişli ola bilər və həmin bazarlara daxil olmaq daha az riskli ola bilər. Digər tərəfdən mütəxəssislər bu qənaətdədirlər ki, fermerlər və sahibkarlar ixracat strategiyalarını düzgün planlamalıdırlar. Sahibkarlara məhsulların keyfiyyətini yüksəltmək, brendləşdirmə və marketinq sahəsində daha çox iş görmək tövsiyə edilir. Əgər Azərbaycan məhsulları, məsələn, pomidor, beynəlxalq bazarlarda tanınırsa, bu, həmin məhsulun dəyərini artırar və bazar şərtləri dəyişdikdə tədarükçülərin daha çevik olmasına imkan tanıyır. Avropa bazarlarına çıxmaq istəyən fermerlər üçün mütəxəssislər, xüsusi olaraq, qida təhlükəsizliyi və məhsul sertifikatları məsələsinə diqqət yetirirlər. Avropa bazarları daha sərt qaydalar tətbiq edirlər və burada yerli istehsalçıların tələblərinin qarşılanması vacibdir. Nəzərə almaq lazımdır ki, bu məsələ yalnız iqtisadi aspektdən deyil, həm də siyasi risklərdən asılıdır.

Bir sözlə, Rusiya ilə əlaqələrin gərginləşməsi qısa müddətli zərərlərə yol aça bilər, lakin strateji baxımdan digər bazarlara çıxış, yerli istehsalı artırmaq və müxtəlif məhsullar üzərində işləmək daha stabil gələcək perspektivlər yarada bilər.

İqtisadçı Xalid Kərimli "Yeni Müsavat"a şərhində bildirdi ki, Rusiya ilə münasibətlərdə siyasi ritorikanın gərginləşməsi müşahidə olunur. İqtisadçı vurğuladı ki, Rusiya zaman-zaman idxal məsələlərindən təzyiq vasitəsi kimi istifadə edib:

"Cəmiyyət də bilir ki, Rusiya Azərbaycana təzyiq etməyə çalışanda ya orada yaşayan azərbaycanlıları sıxışdırır ya da kənd təsərrüfatı məhsullarının idxalı ilə əlaqədar çətinliklər yaradır. Təəssüf ki, Rusiya bu kimi vasitələrlə manipulyasiya etməyə çalışır. Rusiya deyil, hansı ölkə olur-olsun, bir bazardan asılı olmaq ciddi riskdir. Sahibkarların ixrac etdiyi məhsulların demək olar ki, 90 faizi Rusiya bazarlarına çıxarılır. Bu da ciddi risk yaradır. Adətən, bir bazardan asılılıq 25 faiz səviyyəsində olmalıdır. Bu həddi keçmək risk yaradır. Buna görə də hesab edirəm ki, sahibkarlarımız başqa bazarlara çıxış imkanlarını nəzərdən keçirməlidirlər. Əks halda, biznesin dayanıqlılığı üçün risk yaranır. Bir bazardan bu qədər asılı olduğumuz müddətdə bu risklər qalacaq. Yəni, günahı təkcə Rusiyada görməməli, sahibkarların səhvlərinə də diqqət çəkməliyik. Çıxış yolu dünya bazarlarına çıxmaqdır. Bu məsələ dövlətdən çox, sahibkarlardan asılıdır. Məhsulu yetişdirməklə yanaşı, onun satışını da təşkil etmək lazımdır".

İqtisadçı hesab edir ki, Rusiyadan asılılığın obyektiv və subyektiv səbəbləri var:

"Rusiya bazarına çıxmaq daha asandır, çünki keçmişdən qalan ənənələr var. Rusiyada yaşayan soydaşlarımız topdan satış məntəqələri yaradıblar. Dil bilgisi, şəxsi əlaqələr, məhsulumuzun müsbət imicinin olması kimi məsələlər də Rusiyanı sahibkarlar üçün cəlbedici bazara çevirir. Onu da nəzərə almaq lazımdır ki, Rusiya bazarı çox böyük bazardır. Azərbaycanın istehsal etdiyi təxminən 120 milyon dollarlıq pomidor Rusiya üçün çox kiçik rəqəmdir. Risk yarandıqda isə qazancın aşağı düşmə ehtimalı olur. O ki qaldı azərbaycanlı sahibkarların Avropa bazarlarına maraq göstərməməsinə, bəlli qaydalar, şərtlər var. Bizim sahibkarlar üçün Avropa ölkələrində dil baryeri mövcuddur, üstəlik qida sənayesi sahəsində çox sayda sıxışdırıcı, sərt qaydalar qoyulub. Avropa ölkələri təhlükəsiz yaşayış üçün qida standartları müəyyən ediblər".

❑ **Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**

# Məmmədovun "Prado"sundan çıxanlar: İki tüfəng, turaclar...

**Ovdan qayıdan şəxs həbs edilib. Onun avtomobilindən odlu silah, döyüş sursatları aşkar edilib.**

Musavat.com xəbər verir ki, 45 yaşlı A.Məmmədov Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbiri nəticəsində saxlanılıb.

Onun avtomobilinə baxış keçirilən zaman iki ədəd tüfəng və patronlar aşkar edilib.

İmişlidən ovdan qayıdan A.Məmmədov Qaradağ rayonu ərazisində idarə etdiyi 99-OV-500 qeydiyyat nişanlı "Toyota Prado" markalı avtomobilində saxlanılıb. Onun avtomobilindən 3 ədəd qaşqaldaq, bir baş yaşılbaş ördək və Qırmızı Kitaba düşmüş 6 ədəd turac götürülüb.

İstintaq zamanı təqsirləndirilən şəxsin təbiətə vurduğu zərər 2002 manat olaraq hesablanıb.

Təqsirləndirilən şəxs bildirib ki, maşınından çıxan tüfənglərdən biri atasından yadigardır. Digəri isə qardaşına məxsus olub. Həmin silahlardan yalnız ova gedən zaman istifadə etdiklərini deyən A.Məmmədov əməlindən peşman olduğunu söyləyib.

Məhkəmə təqsirləndirilən şəxsi qanunsuz olaraq odlu silah saxlama, qanunsuz olaraq ov etməkdə təqsirli bilib. Məhkəmənin hökmü ilə himayəsində 6 övladı olan, onkoloji xəstəlikdən əziyyət çəkən A.Məmmədov 10 ay həbs cəzasına, 3 min manat isə cərimə cəzasına məhkum edilib.

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 139 (8749) 9 avqust 2025

# Kirayə ev bazarında qıtlıq və bahalaşma - Tələsin!

## Yeni dərs ili ərəfəsində tələbələrin paytaxta axışması qiymət artımına səbəb olub - Rəqəmlər



**Avqust ayı gələn kimi Bakıda kirayə mənzil axtarışı sözün əsl mənasında “yarışa” çevrilir. Yeni dərs ili ərəfəsində paytaxta axışan tələbələr, şəhərin müxtəlif ərazilərində ev axtaran vətəndaşlar və söküntülər səbəbilə köçürülən sakinlər kirayə bazarında böyük sıxlıq yaradır. Bu isə həm qiymət artımına, həm də mənzil qıtlığına səbəb olur.**

“Yeni Müsavat” xəbər verir ki, bu il də əvvəlki illərdən fərqli bir mənzərə müşahidə olunmur. Əksinə, vəziyyət daha da gərginləşib. Kirayə mənzil tapmaq müşkülə çevrilib, qiymətlər isə kəskin artıb. Ekspertlər bu artımı təkcə mövsümlə izah etmirlər - söküntülər, mənzil satış bazarındakı bahalaşma və yeni binaların yüksək icarə qiymətləri bu vəziyyətin başlıca səbəbləri kimi göstərilir.

Əmlak sahəsində fəaliyyət göstərən mütəxəssislərin sözlərinə görə, son illər ərzində Bakıda çoxsaylı köhnə yaşayış evlərinin sökülməsi nəticəsində yüzlərlə ailə kirayə mənzil axtarmağa məcbur qalıb. Sakinlər ya müvəqqəti qohum evinə sığınır, ya da məcburən bazara çıxaraq qiymətlərə uyğun gələn ev axtarır. Bu isə təklifi azaldır, tələbatı isə daha da artırır.

Söküntülərin yerində tikilən yeni binalarda isə qiymətlər fərqli səviyyədədir. Köhnə tikililərlə müqayisədə həmin evlərin kirayə qiymətləri ən azı iki dəfə baha təklif olunur. Bu isə daha çox insanı nisbətən ucuz - amma eyni zamanda köhnə və bəzən qəzalı - binalarda ev axtarmağa məcbur edir. Beləliklə, həmin seqmentdə süni sıxlıq yaranır və bu da qiymətləri “od tutub yandırır”.

Satış qiymətlərindəki artım da kirayə bazarına təsirsiz ötüşmür. Mənzil sahibləri evlərini baha qiymətə sata bilmədikdə, həmin məbləğə uyğun olaraq kirayə qiymətlərini də artırmağa çalışırlar. Nəticədə həm alqı-satqı, həm də kirayə bazarı bir-birini qidalandıraraq süni qiymət şişkinliyi yaradır.

Musavat.com əməkdaşı paytaxtın bir neçə fərqli ərazisində qiymətləri yerində öyrənib. Neftçilər metrosu ətrafında 1 otaqlı mənzillər 250-300 manat, 2 otaqlı mənzillər 450-600 manat, 3 otaqlı mənzillər isə 700-1800 manat arasında dəyişir. Sakinlər ötən illə müqayisədə kəskin fərqin olduğunu təsdiqləyirlər.

“Keçən il 300 manata tutduğum evi bu il 500-ə verirlər. Metrodan uzaq binalarda vəziyyət bir az fərqlidir, amma metro yaxınlığında qiymətlər artıq bizim cibimizə uyğun deyil”, - deyə Natiq Əmirov adlı sakin bildirir.

Tələbələr üçün isə vəziyyət daha da ağırdır. Universitetə bu il qəbul olunmuş gənclər yaşayış problemi ilə üzləşiblər. “Uzaq kənddən gəlmişik, qiymətlər od tutub yanır. Valideynlərimiz bu məbləği necə ödəsin? Qalmışıq küçələrdə”, - deyə adının çəkilməsini istəməyən tələbə deyir.

Qara Qarayev metrosu ətrafında bir otaqlı mənzillərin qiyməti 300-400 manat arasında dəyişir. İki otaqlılar isə 500 manatdan başlayır. Nizami rayonunda orta təmirli 2 otaqlı ev 450 manata təklif olunur. Xətai rayonunda isə təmirsiz 1 otaqlı mənzil üçün qiymət 280 manatdan başlayır. Elmlər Akademiyası metrosuna yaxın ərazidə təmirli 2 otaqlı evin qiyməti 600 manatdır. Yeni Günəşlidə 1 otaqlı mənzili 370 manata tapmaq mümkündür. Yasamalda isə təmirli mənzillərin kirayəsi artıq 800 manata qədər yüksəlib.

Bütün bu faktlar fonunda mövcud mənzərə aydındır: Bakıda kirayə mənzil bazarı mövsümi “şok” yaşayır. Tələbələr, köçkünlər və şəhərə yeni gələnlər münasib ev tapmaqda çətinlik çəkir, bazarda isə vəziyyəti sabitləşdirəcək hər hansı real mexanizm müşahidə olunmur.

Mövzunu şərh edən əmlak eksperti Elnur Fərzəliyev də qiymət artımının səbəblərini sadalayarkən ilk növbədə tələbə axınını və söküntüləri önə çəkir. Onun sözlərinə görə, hər ilin avqust ayından başlayaraq sentyabrın ortasına qədər bazarda həm mənzil qıtlığı, həm də qiymət artımı müşahidə olunur: “Bakıda aparılan söküntülər səbəbindən çox sayda sakin kirayəyə üz tutur və uzunmüddətli kirayədə qalmağa məcbur olurlar. Bu da bazarda mövcud evlərə olan tələbatı artırır”.

Ekspert onu da qeyd edir ki, mənzillərin satış qiymətindəki artım da birbaşa kirayə bazarına təsir edir. Satış bahalaşdıqca, kirayə də paralel şəkildə yüksəlir.

Elnur Fərzəliyev yaxın perspektivdə qiymətlərin sabitləşəcəyini gözləmədiyini bildirir. Əksinə, növbəti aylarda da kirayə bazarında gərginliyin davam edəcəyi proqnozlaşdırılır.

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri Vüqar Oruc qəzetə açıqlamasında deyib ki, avqust və sentyabr aylarında daşınmaz əmlak bazarında qiymət artımları ənənəvi hal alıb: “Hazırda da bu bazarda bahalaşma müşahidə olunur. Bu dəfə artımın əsas səbəblərindən biri daşınma (nəqliyyat) xərclərinin yüksəlməsidir. Eyni zamanda, daşınmaz əmlakın qiymətindəki artım bu sahəyə marağın artdığını, yeni biznes maraqlarının daha qabarıq şəkildə ortaya çıxdığını göstərir.

Banklar hazırda əmanətlərə maksimum 12 faiz civarında gəlir təklif edir. Bunun da 10 faizi vergi ilə tənzimlənir və Dövlət Vergi Xidməti tərəfindən vergiyə cəlb olunur. Lakin daşınmaz əmlak sahəsində belə bir vergi yükü və tənzimləmə yoxdur. Bu isə əmlaka investisiya yatırmaq istəyənlər üçün daha cəlbedici imkanlar yaradır və bazara əlavə təzyiq formalaşdırır.

Əgər bu proses nəzarətsiz davam edərsə və paralel olaraq dövlətin bölgələrə yönəlik təşviq proqramları tətbiq olunmazsa, xüsusilə paytaxtda kirayə mənzillərin qiymətləri ildən-ilə daha da yüksələcək. Bu, tələbələrin, aşağı gəlirli vətəndaşların Bakı şəhərində yaşamaq və təhsil almaq imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdıracaq.

Bunun qarşısını almaq üçün böyük tədris və istehsalat müəssisələrinin regionlara köçürülməsi, əhalinin paytaxtdan kənarda yaşamasına dəstək verilməsi, əmlak bazarında vergi ədalətinin bərqərar edilməsi lazımdır".

❑ **Şahanə RƏHİMLİ,**
**“Yeni Müsavat”**



## Arvadının üzərinə “kislota” tökdü, xəstəxanadan qaçdı

**Arvadının üzərinə “kislota” tökən şəxs hakim qarşısına çıxarılıb. Cinayət işi materiallarında hadisənin maraqlı təfərrüatı məlum olub. Təqsirləndirilən şəxsin psixiatriya xəstəxanasından qaçdığı bildirilir.**

Musavata.com xəbər verir ki, Gəncədə 44 yaşlı Anar xuliqanlıq, ümumi təhlükəli üsulla, xuliqanlıq niyyətilə qəsdən sağlamlığa az ağır zərər vurmada təqsirli bilinərək həbs edilib.

Anar gözəllik salonunda işləyən arvadı Nərminənin yanına gedərək onunla mübahisə edib. Əlində olan “kislota”nı onun üzərinə atıb. “Kislota” Nərminin üzünə töklüməsə də bədənin müxtəlif nahiyyələrini yandırıb.

Təqsirləndirilən Anar ifadəsində deyib ki, arvadı ilə uzun müddətdir münasibətləri normal olmayıb. Onun iddiasına görə arvadı ondan şikayət edərək psixi xəstəxanaya saldırmağa nail olub: “1 il 9 ay qanunsuz olaraq psixi xəstəxanada saxlatdırdı. Çıxdıqdan sonra ətrafdakılar Nərminəni cavan oğlanla gördüklərini dedilər. Hadisədən 1 ay əvvəl ona dedim ki, özünü yığışdır. Buna əsəbləşərək özümlə "kislota" götürüb həmin salona getdim. Oradan hər kəsin uzaqlaşdığını gözlədim və “kislota”nı onun üzərinə atdım".

Zərərçəkmiş kimi tanınan Nərminə deyib ki, Anarla rəsmi boşanmasalar da ayrılıblar və əlaqələri tam olaraq kəsilib. Onun sözlərnə görə, Anar Gəncədə müalicə aldığı psixiatriya xəstəxanasından qaçıb.

“İki övladım var. Anar xəstəxanadan qaçıb gələndən mənə şiddət göstərməyə başladı. Uşaqları götürüb evdən qaçdım. Anarla bütün əlaqələri kəsdim. Anar iş yoldaşımın telefonuna mesaj yazaraq başımızı kəsəcəyini, hamımızı öldürəcəyini demişdi. Bir neçə gün sonra salona gəldi. Onun əlindəki qabı görəndə qaçmaq istədim. Qabağını kəsib əlində olan mayeni üstümə tökdü. Çiyin, kürək və digər nahiyyələrimə töküldü. Sonra məni boğmağa və döyməyə başladı. Salonda olan işçilər bizi ayırdı. Mən bir ilə yaxındır müalicə alıram”.

Tərəflər arasında barışıq olmayıb.

Məhkəmənin hökmü ilə Anara ittiham olunduğu maddələrlə cəza təyin edilib. Hökmə əsasən Anar 4 il müddətinə azadlıqdan məhrum edilib.

❑ **Musavat.com**

## Narkotik qəbul edib işgəncə verirdilər

**Avqustun 8-də Bakı Hərbi Məhkəməsində məhkəmə prosesində ifadə verən zərərçəkmiş şəxs İdris Mirzəyev 1994-cü ilin aprel ayında Tərtər rayonunda Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürüldüyünü bildirib.**

Modern.az xəbər verir ki, İdris Mirzəyev əsirlik zamanı Şuşa həbsxanasında, Ağdərədə, Xankəndidə saxlanıldığını deyib. Azərbaycanın həmin vaxt Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Ağbulaq kəndində (Xocavənd rayonu - red.) donuz və toyuq fermaları tikintisi işlərinə məcburi şəkildə cəlb olunub. Əsirlik zamanı döyülüb, işgəncələrə məruz qalıb, cümlədən başında butulka sındırılıb. Aldığı xəsarətlər nəticəsində onurğa sütunu zədələnib, bu səbəbdən axsayır. “Sərxoş olub, narkotik maddələr qəbul edib bizə işgəncə verirdilər”, - deyə o bildirib.

Həbib Əliyev 1992-ci ildə Laçında həqiqi hərbi xidmətdə olarkən, döyüşlər zamanı yaralanması nəticəsində əsir götürüldüyünü söyləyib. Yaralı vəziyyətdə döyülüb, işgəncələrə məruz qalıb. Əsir əsgər yoldaşı gözləri qarşısında yandırılıb. Həbib Əliyev Əsirliyinin 1 il 8 ayını zirzəmidə saxlanılıb. 1995-ci il mayın 8-də əsirlikdən azad olunub.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

YENİ MÜSAVAT
N 139 (8749) 9 avqust 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi



# "Qırmızı qızıl"ın bazar problemi

## Yüz tonlarla məhsulun sahələrdə çürüməsinin qarşısını necə almaq olar?

**Bu il Azərbaycanın əksər pomidor istehsalçıları ciddi bir problemlə üzləşiblər. Əlverişli hava şərtləri bol məhsul əldə etməyə imkan versə də, onun satışı sahəsində böyük çətinliklər meydana çıxıb. Hazırda açıq sahədə pomidor istehsalı üzrə ixtisaslaşmış iki rayonda - Xaçmaz və Masallıda fermerlər məhsula bazar tapmırlar.**

Ölkə mətbuatının hazırladığı reportajlardan aydın olur ki, Xaçmaz rayonunda yetişdirilən tonlarla pomidor alıcı olmadığına görə sahələrdə qalıb. Pomidorun qiymətinin kəskin aşağı düşməsi səbəbindən təsərrüfat sahibləri ciddi maddi ziyana uğrayıblar. Rayonun Hülövlü kəndində yerləşən bazarda aparılan müşahidə də vəziyyətin ürəkaçan olmadığını göstərib. Hər il bu vaxt həmin bazarda böyük canlanma yaşansa da, indi orada durğunluq hökm sürür. Bazarın kasadlığından gileylənən təsərrüfat sahibləri bildiriblər ki, keçən illə müqayisədə pomidor çox ucuzlaşıb. Başqa sözlə, ötən il bir yeşiyi (25-30 kq) 15 manata satılan pomidorun hazırkı qiyməti 4-5 manat arasında dəyişir. Pərakəndə satışda isə pomidorun bir kiloqramının qiyməti təqribən 15-17 qəpikdir. Bəzi fermerlər qiymətin kəskin azalması üzündən yetişdirdikləri məhsulu dəyər-dəyməzinə birbaşa konserv zavodlarına satmağa üstünlük verirlər.

Onların fikrincə, qiymətlərin kəskin azalmasının səbəbi pomidorun xarici bazarlara göndərilməsində yaranan çətinliklər, həmçinin bulki məhsul bolluğudur. Fermerlər bu vəziyyətin onları ciddi zərərə məruz qoyduğunu bildiriblər. Təsərrüfat sahiblərinin sözlərinə görə, bir hektar ərazidə pomidor becərmək üçün 5 min manatdan çox pul xərclənir. Yetişən məhsulun yığılmasına cəlb olunan hər fəhləyə gündəlik 30 manat ödənilir. Mövcud satış qiymətləri isə gəlir götürmək bir yana, heç maya dəyərini çıxarmağa da imkan vermir.

Məsələ ilə əlaqədar Xaçmaz Dövlət Aqrar İnkişaf Mərkəzindən (DAİM) "Report"un yerli bürosuna bildirilib ki, rayon ərazisində ümumilikdə 3 min 363 hektar sahədə tərəvəz əkilib. Onun da 2 min 19 hektarını pomidor sahələri təşkil edib. Bu il ötən illərlə müqayisədə məhsul bolluğu qeydə alınıb. Sahibkarlar bazar seçimində və pomidorun satış qiymətini müəyyənləşdirməkdə sərbəstdirlər. Təsərrüfat sahibləri yetişdirdikləri məhsulu daxili bazarlara çıxarmaqla yanaşı, rayonda fəaliyyət göstərən meyvə-tərəvəz emalı zavoduna da təhvil verə bilərlər.

Xaçmaz konserv zavodu pomidorun kiloqramını istehsalçılardan 17 qəpiyə qəbul edir.

Masallının illərdir pomidor əkini ilə məşğul olan Sərçuvar kənd sakinləri - fermerlər də əkib-becərdikləri pomidoru sata bilmirlər. Satışa yararlı olan tonlarla pomidor sahələrdə çürüyərək məhv olur. Fermerlərin sözlərinə görə, adəti üzrə bu il də bolqar sortu olan "Novuçok" əkiblər. Bu sort da əsasən turşu hazırlamaq üçün nəzərdə tutulub.

Məsələ ilə bağlı Masallı Dövlət Aqrar İnkişaf Mərkəzindən bildirilib ki, ötən il rayonda 537,5 ha, bu il isə 542 ha sahədə pomidor əkilib, bu da müqayisədə 4.5 ha çoxdur. 2023-cü ildə isə Masallıda 535 hektar sahədə pomidor əkilibmiş. Fermerler hazırda irili-xırdalığından asılı olaraq pomidorun 1 kiloqramını 10-30 qəpik arasında təklif edirlər.

Xaçmaz rayonundan fərqli olaraq Masallıda konserv zavodu olmadığına görə məhsulun xeyli hissəsi sahələrdə çürümək təhlükəsi altındadır.

Onu da qeyd edək ki, Azərbaycanda bol məhsulun satış bazarının olmaması ilk dəfə meydana çıxan problem deyil. 2023-cü ildə də pomidor istehsalçıları belə çətinliklə üzləşmişdilər. Eyni zamanda bu, yalnız pomidor deyil, soğan, çiyələk, sarımsaq və digər məhsullar üzrə də ortaya çıxan problemdir. Və burada əsas məsələ xaricə ixracda hansısa çətinliyin yaranması deyil, məhsulun bol olması, ölkənin ən mühüm bazarı olan Bakı və Abşerona məhsul buraxılışının inhisarlaşmasıdır. Belə ki, hazırda Bakıda pomidorun kiloqramı 70-80 qəpikdən 1,5 manata qədər dəyişir. Paytaxtın 200 km-liyində 10 qəpiyə satılan məhsulun bazarlara 7-8 dəfə baha qiymətə çıxmasının əsas səbəbi bazarların müəyyən qrupların əlində olması, fermerlərin öz məhsullarını həmin bazarlara çıxarmasına imkan verilməməsidir.

Azərbaycan Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyası İctimai Birliyinin rəhbəri Bəşir Quliyevin "Yeni Müsavat"a dediyinə görə, hazırda ölkənin əsas ixrac bazarı olan Rusiyaya pomidor çatdırılmasında hər hansı problem yoxdur. Dövlət Gömrük Komitəsinin məlumatına görə, Azərbaycan 2025-ci ilin yanvar-iyun aylarında 149 milyon 26 min dollar dəyərində 134 min 375 ton pomidor ixrac edib. Göstərici 2024-cü ilin eyni dövrü ilə müqayisədə məbləğ baxımından 8,8 faiz və ya 12 milyon 77 min dollar, miqdar baxımından isə 20 min 129 ton və ya 17,6 faiz çoxdur. Bu isə o deməkdir ki, ixracda çətinlik pomidorun sahələrdə qalmasının səbəbi kimi göstərilsə də, belə problem mövcud deyil.

İki rayonun müqayisəsi göstərir ki, son məhsulun əldə olunması imkanı yaranan rayonda - Xaçmazda istehsalçılar məhsulu aşağı qiymətə də olsa satmaq imkanına malikdirlər - konserv zavodunun timsalında. Masallıda isə bu imkan yoxdur, məhsulun xeyli hissəsi məhv ola bilər. Əsas istehsal rayonlarında son məhsulun əldə olunmasına imkan verən istehsal zəncirinin qurulması fermerləri indiki çətinliklə üzləşməsinin qarşısını alar.

Digər tərəfdən, dünyada uğurla tətbiq olunan bir təcrübənin Azərbaycanda, nəhayət ki, reallaşdırılması zəruridir. Söhbət bol məhsul əldə olunan mövsümdə məhsulun dövlət tərəfindən fermerin müəyyən miqdarda gəlir əldə etməsinə imkan verən qiymətə alınmasından gedir. Bu mexanizm qardaş Türkiyə də daxil olmaqla, kənd təsərrüfatı istehsalına diqqət yetirən əksər ölkələrdə fermerlərin qorunmasının ən uğurlu yolu kimi tətbiq olunur.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Dünya SAKİT**

# Ən böyük neft yatağında rekord azalma

**Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban Azərbaycanın ən iri neft yataqları bloku olan "Azəri-Çıraq-Günəşli"də (AÇG) hasilat dinamikası və gəlirlərdəki dəyişikliklərlə bağlı son statistik göstəriciləri şərh edib.**

Azpolitika.info-nun xəbərinə görə, ekspert bildirib ki, cari ilin ilk yarısının nəticələrinə əsasən, AÇG-də gündəlik ortalama neft hasilatı ötən ilin eyni dövrü ilə müqayisədə 9 min barel azalaraq 327 min barel təşkil edib. O bu məlumatın "bp-Azerbaijan" şirkəti tərəfindən yayımlandığını qeyd edib.



İlham Şaban vurğulayıb ki, bu, AÇG-də hasilatın zirvə nöqtəsindən - yəni 2010-cu ilin III rübündə qeydə alınmış gündəlik 835,1 min barel səviyyəsindən bəri böyük azalmadır. Onun sözlərinə görə, həmin dövrdə gündəlik orta hasilat 827,1 min barel olub və indiyə qədər bu göstərici 508,1 min barel və ya 60,8% azalıb.

Bununla belə, Şaban prosesdə müəyyən müsbət meyillərin də müşahidə olunduğunu qeyd edib. O bildirib ki, bp-nin statistikası əsasında apardığı müqayisə nəticəsində maraqlı bir tendensiya üzə çıxıb: "2023-cü ilin ilk yarısında hasilat 6,72 milyon barel azalmışdısa, 2024-cü ilin eyni dövründə bu azalma 1,9 milyon barelədək səngiyib".

O əlavə edib ki, azalma tempinin zəifləməsində əsas amil kimi ötən ilin aprelində istismara verilmiş ACE platformasının rolunu qeyd etmək olar. Onun sözlərinə görə, hazırda bu platformada gündəlik hasilat 25 min barel həcmindədir.

İqtisadi göstəricilərə toxunan ekspert bildirib ki, hasilatdakı və neftin dünya bazar qiymətlərindəki eniş AÇG layihəsinin ümumi gəlirinə də təsir göstərib: "Əgər ötən illə müqayisədə satılan neftin qiyməti hər bareldə təxminən 9 dollar aşağı olubsa, bu, AÇG-nin səhmdarlarına 2025-ci ilin ilk yarısında təqribən 700 milyon dollar daha az gəlir gətirməsi deməkdir".

Şaban qeyd edib ki, bu azalma Azərbaycanın Dövlət Neft Fonduna daxil olan mənfəət neftinin dəyərində də özünü göstərib. Belə ki, 2024-cü ilin ilk yarısında AÇG-dən fonda 3 milyard 530 milyon dollar daxil olmuşdursa, 2025-ci ilin eyni dövründə bu məbləğ 2 milyard 604,3 milyon dollara düşüb.

## "Tesla"nın 500 milyardlıq layihəsi ləğv olundu

"Tesla" şirkəti "Dojo" superkompüterinin hazırlanması ilə məşğul olan komandanı buraxmaq qərarına gəlib.

Bakupost.az xəbər verir ki, bu barədə "Bloomberg" agentliyi daxili mənbələrə istinadən xəbər verib.

Bildirilib ki, layihənin rəhbəri də şirkəti tərk edəcək.

"Dojo" layihəsinə rəhbərlik edən Piter Bennon şirkəti tərk edir, baş direktor İlon Mask isə bu təşəbbüsün dayandırılması barədə göstəriş verib", - deyə açıqlamada vurğulanıb.

O da qeyd edilib ki, layihə üzərində işləyən 20 əməkdaş bu yaxınlarda digər departamentlərə yönləndirilib.

"Tesla" xarici texnologiya tərəfdaşlarına - hesablama həlləri üçün ABŞ-nin "Nvidia" və "Advanced Micro Devices" şirkətlərinə, çiplərin istehsalı üçün də "Samsung Electronics"lə əməkdaşlığını gücləndirməyi planlaşdırır.

"Dojo" superkompüteri - "Tesla"nın elektromobillərinin avtopilot və tam avtonom idarəetmə funksiyalarının, eləcə də "Optimus" humanoid robotunun əsasını təşkil edən süni intellekt modellərinin təlimi üçün hazırlanmış sistemdir. "Morgan Stanley Amerika" maliyyə konqlomeratının analitikləri hesab edirdilər ki, "Dojo" "Tesla"nın əsas rəqabət üstünlüyünə çevrilə və şirkətin kapitallaşmasını 500 milyard dollar artıra bilərdi.

YENİ MÜSAVAT
N 139 (8749) 9 avqust 2025

# İran qəzetindən Bakıya qarşı gülməli iddia



**İran mediasının Azərbaycana qarşı qərəzi artıq sərhəd tanımır. Tribunainfo.az xəbər verir ki, İranın dini lideri Əli Xameneyinin müşaviri olan Əli Şəriətmədarinin baş redaktoru olduğu "Keyhan" qəzetində qəribə yazı dərc olunub.**

Xəbərdə İranda bu gün yaşanan quraqlıq və su çatışmazlığının "günahkar"ı kimi Azərbaycan göstərilib. "İranda iqlim dəyişikliyinə görə İsrail, Türkiyə və Bakı günahkardır. Hazırda Türkiyədəki 75 İsrail şirkəti İranın iqlim dəyişikliyi layihəsinə fokuslanıb. Peyk müşahidələri göstərir ki, əvvəllər Aralıq dənizindən keçən və Türkiyədən sonra İrana daxil olan buludlar, indi İran sərhədlərinə çatmadan Bakıya doğru yönəldilir".

Bu həmin qəzetdir ki, İranda su böhranının aradan qaldırılması üçün maraqlı və gülməli təkliflə çıxış etmişdi. "Keyhan" qəzeti yazmışdı ki, İranda qarpız əkini dayandırılmalıdır: "Çünki ən çox su bu bitkinin yetişdirilməsinə gedir. Əgər qarpız əkini dayanarsa, İranın su problemi həll olacaq".



# Putin müharibəni bu halda dayandıracaq - Gözlənti

## Rusiya üçün döyüş meydanında vəziyyətin ağırlaşması fonunda strateji seçimlər dəyişə bilər - iki fərqli baxış

**"Əgər ABŞ Prezidenti Donald Tramp sərt sanksiyalar və Ukraynaya silah tədarükünü artıran kombinasiyanı seçsə, Rusiya lideri Vladimir Putinin Ukraynaya qarşı müharibəni dayandırmaqdan başqa yolu qalmayacaq". Bu barədə "Teleqraf"ın müdafiə və xarici əlaqələr departamentinin redaktoru Kon Koflin deyib. O qeyd edib ki, müharibə zamanı bəlli olub ki, Putin ümidsizcəsinə istədiyi qələbəni heç vaxt əldə etməyəcək. Kon Koflin vurğulayıb ki, rus qoşunlarının döyüş meydanında həlledici irəliləyişə nail ola bilməməsi onların son yay hücumu zamanı xüsusilə aydın olub və bu onlara böyük itkilərdən başqa heç nə verməyib. Gündə təxminən 1000 nəfər itiriblər.**

Kon Koflin haqlıdırmı? Putin müharibəni dayandırmağa məcbur olacaqmı?

Professor Qabil Hüseynli "Yeni Müsavat"a deyib ki, müharibənin gedişində və siyasi-hərbi müstəvidə baş verən son dəyişikliklər fonunda britaniyalı ekspert Kon Koflinin "Putinin müharibəni dayandırmaqdan başqa yolu qalmayacaq" fikri real ssenarilərdən birini əks etdirir: "ABŞ Ukraynaya silah tədarükünü sürətləndirməklə Rusiyaya qarşı sanksiya təzyiqlərini daha sərt formada davam etdirsə, Kremlin manevr imkanları xeyli daralacaq. Bu baxımdan, Kon Koflinin fikrində məntiq var. Amma burada əsas məsələ təkcə ABŞ-ın sərtliyi deyil. Söhbət Qərbin Ukraynaya münasibətdə vahid strategiya sərgiləyib-sərgiləməyəcəyindən gedir. Trampın Çin və İran məsələsində sərtləşməsi Rusiyanı da daha güclü blokada ilə qarşı-qarşıya qoya bilər. Bu zaman Putin ya geri çəkilməli olacaq, ya da daha riskli addımlara əl ata bilər".

Politoloqun fikrincə, Rusiya üçün döyüş meydanında vəziyyətin ağırlaşması fonunda strateji seçimlər də dəyişə bilər: "Rus qoşunlarının 2024-cü ilin yay hücumları ciddi itkilərlə nəticələndi. Onlar artıq məhdud irəliləyişlər uğrunda çox böyük resurslar itirirlər. Gündə 1000 nəfərlik canlı qüvvə itkisini davamlı şəkildə saxlamaq mümkün deyil. Bu, Kreml üçün həm iqtisadi, həm də sosial baxımdan qəbuledilməz hala çevrilə bilər".

Politoloq qeyd edib ki, Trampın Ukrayna məsələsində "danışıqlar yolu ilə nizamlanma" çağırışları indiki halda Kremlin maraqlarına cavab verir: "Digər tərəfdən isə, Trampın NATO üzvlərini daha çox məsuliyyət daşımağa məcbur etməsi, Avropanın hərbi güclənməsi və Çin-İran-Rusiya üçlüyünə qarşı koordinasiyalı təzyiqlər Moskvanın manevr imkanlarını daraldır. Bu gün Rusiya üçün yalnız sülh danışıqlarına razı olmaq və ərazi iddialarından geri çəkilmək alternativ ola bilər. Kon Koflinin səsləndirdiyi fikir emosional səslənsə də, strateji baxımdan realdır. Hazırda müharibənin dayanması Kreml daxilindəki siyasi iradədən və Rusiya cəmiyyətinin dözümlülüyündən asılıdır. Əgər Putin kompromisə getməyə razı olmazsa, müharibə daha sərt və daha dağıdıcı şəkil ala bilər".

Hərbi ekspert Rövşən Məhərrəmov isə deyib ki, Ukrayna cəbhəsində baş verən son proseslər Rusiya Federasiyasının müharibə strategiyasının həm siyasi, həm də hərbi baxımdan tükənmə mərhələsinə qədəm qoyduğunu göstərir. Hərbi ekspert "Yeni Müsavat"a bildirib ki, Kon Koflinin qənaəti, əslində, mövcud hərbi və geosiyasi reallıqlara əsaslanır: "Hərbi cəbhədə rus ordusunun son aylarda apardığı hücum əməliyyatları nəinki strateji nəticə verməyib, əksinə, gündəlik 800-1000 nəfərə çatan canlı qüvvə itkisi ilə nəticələnib. Bu isə Kreml üçün həm daxili legitimlik baxımından, həm də hərbi resursların davamlılığı baxımından ciddi təhlükə siqnalıdır. Hazırda Rusiya ordusunun istifadə etdiyi döyüş sursatlarının əsas hissəsi Sovet dövründən qalan ehtiyatlardan ibarətdir. Qərbin tətbiq etdiyi sanksiyalar Rusiya hərbi sənayesinin müasir texnologiyalarla təminatına ciddi maneələr yaradıb. Elə bu səbəbdən də Rusiya, İran və Şimali Koreya kimi rejimlərdən dron və artilleriya mərmiləri almaq məcburiyyətində qalır. Əgər ABŞ administrasiyası Ukraynaya silah tədarükünü artırarsa, bu, döyüş meydanında Rusiyanı daha çətin duruma sala bilər. Bu isə Rusiyanın artıq strateji təşəbbüsü əldən verdiyini rəsmiləşdirəcək".

Hərbi ekspert bildirib ki, Kremlin daxili qərarvermə mexanizmlərində bir müddətdir ki, "minimum itkilərlə çıxış" planı müzakirə olunur: "Kreml öz "geosiyasi qazanc" ritorikasını saxlayaraq, müəyyən ərazilər üzərində nəzarətin rəsmiləşdirilməsi qarşılığında danışıqlara başlamağa razılıq verə bilər. Putin strateji cəhətdən çox dar çərçivəyə düşüb. Rusiya ordusu artıq manevr imkanlarını itirib. Hazırkı vəziyyət göstərir ki, Qərbin Ukraynaya verdiyi dəstək artırsa, bu, Rusiya üçün daha böyük itkilərlə nəticələnəcək. Bu səbəbdən də Moskva danışıqlar masasına qayıtmaq üçün məcburi barış formulunu aktivləşdirə bilər. Yeni məsələ yalnız cəbhədəki itkilər və ya beynəlxalq təzyiqlərlə bağlı deyil, bu həm də Rusiyanın hərbi və iqtisadi resurslarının davamlılığı məsələsidir. ABŞ və NATO-nun artan dəstəyi fonunda Rusiya tərəfinin strateji təcrid vəziyyətinə düşməsi Putinin məğlub olmadan dayanmaq üçün yeganə çıxış yolu kimi barışa yönəlməsinə səbəb ola bilər".

Bu arada, "The Wall Street Journal"-ın yazdığına görə, Tramp Putini müharibəni dayandırmağa çağırsa da, razılaşmanın təfərrüatı ilə az maraqlanıb. Putin isə öz şərtləri istisna olmaqla, döyüşlərin dayandırılması ilə bağlı bütün çağırışları indiyə kimi rədd edib. Nəşrin fikrincə, əgər Tramp və Putin arasında görüş baş tutsa, bu, Trampın prezidentlik müddətində ən ciddi sınağı ola bilər. Xüsusilə də, analitiklər Putinin razılaşma niyyətlərinin ciddi olmaması ilə bağlı narahatlıqlar səsləndirir. Vaşinqtonda yerləşən Avropa Siyasətinin Təhlili Mərkəzinin prezidenti və baş direktoru Alina Polyakova deyib: "Putin açıq şəkildə bildirdi ki, Ukraynadakı müharibə onun üçün ABŞ ilə münasibətlərdən daha vacibdir".

Bundan əlavə, WSJ qeyd edir ki, Tramp üçün daha bir çətin vəzifə müxtəlif ABŞ prezidentləri ilə qarşılıqlı əlaqədə 25 illik təcrübəyə malik olan və onlara təsir etmək qabiliyyətini göstərən Putinlə danışıqlar aparmaq olacaq.

Yüksək rütbəli avropalı diplomat və ukraynalı rəsmi nəşrə bildirib ki, Putin Rusiyanın Ukraynanın digər bölgələrindən çıxarılması müqabilində işğal etdiyi Ukrayna ərazilərinin bir hissəsini rəsmi şəkildə tanınmasını təklif edə bilər. Yeni son günlər "ərazi mübadiləsi" barədə deyilənlərin mahiyyəti odur ki, Rusiya işğal etdiyi ərazilərin bir hissəsinin rəsmən Rusiya torpaqları kimi tanınması müqabilində digər bəzi ərazilərdən çıxa bilər. İstənilən yolla razılaşmaya can atan Tramp isə Ukraynanı və onun müttəfiqlərini bu təklifi qəbul etməyə çağıra bilər.

❑ **Elşən MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**



# Ankara və Londondan Qəzza çağırışı

**Böyük Britaniyanın Baş naziri Keir Starmer İsrail təhlükəsizlik kabinetinin Qəzzanı ələ keçirmək qərarını səhv adlandırıb və İsrail hökumətini bu qərara yenidən baxmağa çağırıb.**

BBC xəbər verir ki, Starmerin fikrincə, sözügedən qərar münaqişənin bitməsinə və girovların azad edilməsinə töhfə verməyəcək, əksinə, daha çox qırğına səbəb olacaq. Britaniyanın Baş naziri münaqişə tərəflərini diplomatik həll yoluna çağırıb.

"Bizə lazım olan budur ki, atəşkəs bərqərar olsun, humanitar yardımlar artsın və bütün girovlar azad edilsin. HAMAS Qəzzanın gələcəyində heç bir rol oynaya bilməz və tərksilah olub ərazini tərk etməlidir"- Keir Starmer vurğulayıb.

Türkiyə İsrailin Qəzzanı ələ keçirmək planını qınayıb. Türkiyə XİN bəyanat yayıb. Rəsmi Ankara İsrailin bu qərarının beynəlxalq sülh və təhlükəsizliyə ağır zərbə vurduğunu, regionda qeyri-sabitliyi artırdığını və humanitar böhranı dərinləşdirdiyini bəyan edib. Türkiyə XİN Qəzzada atəşkəs elan olunmasına və iki dövlətli həll yolu istiqamətində müzakirələrə başlanılmasına çağırıb.

# Gürcüstan bu müqavilədən imtina etdi

**Gürcüstan Abxaziya və Cənubi Osetiya ilə güc tətbiq etməmək haqqında müqavilə imzalamağa hazır deyil. APA xəbər verir ki, bu barədə Baş nazir İrakli Kobaxidze bildirib.**

Xarici İşlər Nazirliyi isə öz növbəsində Rusiya Federasiyasından qoşunların çıxarılmasını və Gürcüstanın işğal olunmuş bölgələrinin tanınmasından imtina etməsini tələb edib.

Xarici İşlər Nazirliyi Rusiya Federasiyasını Gürcüstanın suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyə, eyni zamanda, 12 avqust 2008-ci il tarixli atəşkəs razılaşması üzrə öhdəliklərini yerinə yetirməyə, qoşunlarını Gürcüstan ərazisindən çıxarmağa çağırıb.



## Saç “yeyən” uşaqlar - Onları necə çəkindirməli?

### Psixoloqdan bu xəstəliklə bağlı valideynlərə xəbərdarlıq

**Qax rayon sakini olan 9 yaşlı qız iyulun 30-da ürəkbulanma, iştahsızlıq və qarın ağrısı şikayətləri ilə Klinik Tibbi Mərkəzə yerləşdirilib. Xəbər verdiyimiz kimi, aparılan radioloji müayinələrdən sonra ona tirixofagiya diaqnozu (mədədə saç kütləsi bezoar) qoyulub və Uşaq Cərrahiyyə şöbəsinə yerləşdirilib. Şöbənin müdiri İlqar Haqverdiyev və həkim Binnət Sofiyevin iştirakı ilə qastrotomiya əməliyyatı icra edilib. Azyaşlının mədəsində aparılan cərrahi əməliyyat uğurla bitib və saç kütləsi xaric edilib. Hazırda onun müalicəsi Uşaq Cərrahiyyə şöbəsində davam etdirilir, vəziyyəti stabil qiymətləndirilir.**

Tirixofagiya adlandırılan xəstəlik əslində psixoloji problemdir. Uşaqlar öz saçlarını və ya yerə düşən tükləri götürüb yeyir. Bu zaman mədədə tük topası yığılır, tükdən ibarət böyük kütlə əmələ gəlir. Kütlə mədəni tam tutduqda artıq qidalana bilməmək, qusma və mədə nahiyəsində şişkinlik kimi əlamətlər ortaya çıxır.

Qeyd edək ki, bu, ilk belə hal da deyil. Bəs saç “yeyən” uşaqları bu vərdişdən necə çəkindirməli? Valideynlər daha çox nəyə diqqət etməlidir? Daha çox hansı yaşda bu patologiya özünü göstərir və niyə məhz qız uşaqları?

Psixoloq Azad İsazadə “Yeni Müsavat”a açıqlama verib ki, saç yemək davranışı (trixofagiya) yalnız uşaqlarda deyil, böyüklər arasında da müşahidə olunur. Onun dediyinə görə, bu hal xüsusilə qız uşaqları arasında daha çox yayılıb. “Saç yemək davranışı, bəzən saç yolmaq (trixotillomaniya) vərdişinin daha ağır və dərinləşmiş forması kimi meydana çıxır. Bu, sıradan bir vərdiş deyil, ciddi psixiatrik problemdir və mütləq mütəxəssis müdaxiləsi tələb olunur. Həm dərman müalicəsinə, həm də uzunmüddətli psixoloji terapiyaya ehtiyac duyulur. Bu davranış artıq diaqnoz səviyyəsində qəbul olunmalıdır və müalicə olunmalıdır”, - deyə Azad İsazadə bildirib.

Psixoloqun sözlərinə görə, bu problemin yaranmasının səbəbləri müxtəlif ola bilər: “Bəzən uşağın psixoloji gərginlik, ailədaxili konflikt və ya emosional ehtiyaclara cavab tapa bilməməsi nəticəsində belə vərdişlər formalaşır. Müəyyən mərhələdən sonra bu davranış vərdişə çevrilir və davamlılıq qazanaraq asılılıq formasını alır. Biz çox zaman vərdişlərin bir qismini asılılıq kimi qəbul edirik. Saç yemək də bu baxımdan psixoloji asılılıqdır. Valideynlərin davranışı bu məsələdə olduqca önəmlidir. İlk mərhələdə valideynlər övladlarının davranışlarına diqqət etməli, onları müşahidə etməli və dəstək göstərməlidirlər. Təəssüf ki, çox hallarda bu hal gözardı edilir və nəticədə davranış psixi pozuntu səviyyəsinə qədər inkişaf edir. Bu nöqtədən sonra isə artıq peşəkar psixiatrik yardım qaçılmaz olur”.

Psixoloq deyib ki, valideynlər bu tip davranışları yalnız tərbiyə və ya intizam problemi kimi deyil, eyni zamanda, bir siqnal - uşağın daxilindəki problemin göstəricisi kimi qəbul etməlidirlər: “Ola bilər ki, uşaq evdə və ya sosial mühitdə yaşadığı hər hansı bir problemi sözlə ifadə edə bilmir və nəticədə bu cür destruktiv vərdişlərə yönəlir. Ona görə də vaxtında diaqnostika və psixoloji müdaxilə çox önəmlidir”.

❑ **Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**

# COVID-in “vətəni” karantinə qayıdır, Azərbaycanda isə...

## Çinin bir əyalətində sanitar tədbirlər bərpa edilib - virusun pandemiya şəklində yenidən qayıtma riski varmı?

**Çinin Quandun əyalətinin səlahiyyətliləri COVID-19 pandemiyası zamanı tətbiq olunan sanitar tədbirləri qismən bərpa ediblər. Bu, əhalini çikunqunya virusundan qorumaq üçün edilir. Bu barədə “Blumberg” məlumat yayıb.**

Məlumata görə, indi əyalətdəki apteklərdən xəstəliyin əlamətlərini yüngülləşdirməyə kömək edən dərmanlar alarkən sənədləri təqdim etmək lazımdır. Alıcılar haqqında məlumatlar yoluxma hallarını qeyd etmək üçün sanitar nəzarət orqanlarına verilir.

Bildirilir ki, virusu daşıyan ağcaqanadların çoxalması ilə bir aydan az müddətdə təkcə Foşan şəhərində 7000-dən çox insan bu xəstəliyə yoluxub.

Bundan əvvəl isə İranın səhiyyə nazirinin müavini Əlirza Rəisi ölkədə yeni koronavirus infeksiyası dalğası barədə xəbərdarlıq etmişdi. Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Qebreyesus yeni pandemiya xəbərdarlığı etmişdi. O, növbəti pandemiyanın özünü çox gözlətməyəcəyini demişdi. Sinqapur və Honqkonqdan COVID-19-la bağlı gələn xəbərlər dünya ictimaiyyətində narahatlıq doğurub.



Mütəxəssislərin sözlərinə görə, yeni ştamlar daha yoluxucudur, lakin əvvəlki variantlarla müqayisədə daha yüngül simptomlarla müşayiət olunur. Bir neçə ay əvvəl Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov demişdi ki, hazırda ölkədə yeni koronavirus infeksiyasına yoluxmaya tək-tək hallarda rast gəlinir.

Azərbaycan üçün indi vəziyyət necədir? Virusun pandemiya şəklində yenidən qayıtma riski varmı, yoxsa bundan sonra lokal miqyasda yoluxma ola bilər? Azərbaycanın səhiyyə orqanları prosesi nəzarətdə saxlayırmı, buna ehtiyac qalıbmı?

Bakı Ağrı Klinikasının baş həkimi Zülfüqar Yusifov “Yeni Müsavat”a mövzu ilə bağlı fikirlərini bölüşüb: “Dünyanın müxtəlif bölgələrində yeni virusların yaranması halları müşahidə olunmaqdadır. Xüsusilə Çin, Hindistan kimi əhalinin sıx yaşadığı ölkələr bu baxımdan ciddi endemik ocaqlar hesab olunur. Lakin cari il üçün pandemiya və ya genişmiqyaslı epidemiya təhlükəsi real görünmür. Əvvəlki pandemiya təcrübəmiz bu məsələlərə qarşı daha həssas və ehtiyatlı yanaşma zərurətini ortaya qoyub. Keçmişdə yaşanan ağır fəsadlar, insan itkisi və sosial-iqtisadi təsirlər cəmiyyətlərdə və dövlətlərdə bir növ vahimə və diqqətlilik formalaşdırıb. Bu səbəbdən hər hansı bir lokal ocağın yaranması belə yerli səhiyyə qurumları tərəfindən ciddi şəkildə izlənməli və müvafiq tədbirlər vaxtında görülməlidir”.

Həkim Çində yayılan son virusla bağlı onu qeyd edib ki, bu hal lokal xarakter daşıyır və geniş yayılma potensialı aşağıdır: “Artıq post-COVID dövründə yaşayırıq və bu mərhələdə müxtəlif bölgələrdə aylıq olaraq yeni viruslarla bağlı məlumatların yayılması adi hala çevrilib. Tarix boyunca pandemiya və epidemiyalar olub və bu cür hadisələrin davamlı baş verməsi ehtimalı azdır. Hazırda dünya səhiyyə sistemi daha inkişaf etmiş vəziyyətdədir, insanlar isə viruslarla bağlı daha məlumatlı və ayıqdır. Bu baxımdan yeni bir virusun pandemiya halını alması ehtimalı aşağı olsa da, yenə də diqqətli olmaq və ehtiyatı əldən verməmək vacibdir.

İnfeksiyaların yayılmasında insanların hərəkətliliyi əsas rol oynayır. Baxmayaraq ki, artıq kifayət qədər təcrübəmiz var, dünya əhalisinin artması, əhali sıxlığı və bəzi ölkələrdə sanitar-gigiyenik şəraitin qeyri-kafi olması yoluxma hallarının ortaya çıxmasına səbəb olur. Virusun yayılmasını isə insanların yüksək mobilliyi sürətləndirir. Çünki bu gün insanlar olduqca aktiv və hərəkətlidir, eyni şəxs bir neçə ölkəyə səfər edə bilir. Əgər ölkə daxilində və ölkələrarası münasibətlər çərçivəsində sanitar nəzarət tədbirləri yetərincə təşkil olunmazsa, infeksiyalar asanlıqla yayıla bilər. Bu səbəbdən, pandemiyanın aktual və ya qeyri-aktual olmasından asılı olmayaraq, yaxın keçmişdə yaşadığımız acı təcrübələri unutmamalı, onlardan dərs çıxarmalıyıq. Gigiyena qaydalarına ciddi əməl etmək, zərurət olduqda sosial məsafə saxlamaq və xüsusilə xəstəlik hallarının müşahidə olunduğu mühitlərdə maskalardan istifadə etmək vacibdir".

Qeyd edək ki, 2025-ci ilin iyul-avqust ayları dünyada bir sıra virus və yoluxucu xəstəliklərin yenidən gündəmə gəlməsi ilə yadda qaldı. İqlim dəyişikliyi, qlobal hərəkətlilik və gigiyenik problemlər fonunda müxtəlif bölgələrdə lokal və regional epidemiyalar müşahidə olundu. Mütəxəssislər bu hallar fonunda əhalini bir daha gigiyena qaydalarına riayət etməyə və erkən xəbərdarlıqlara ciddi yanaşmağa çağırırlar.

Hindistanda H5N1 və H7N9 kimi yüksək ölüm nisbətinə malik quş qripi ştammları ilə bağlı yenidən təhlükə siqnalları verilir. Artıq 10 əyalətdə 40-dan çox yoluxma halı təsdiqlənib. Bu həm insan sağlamlığı, həm də quşçuluq sektoru üçün ciddi risk daşıyır. Hindistan hökuməti yoluxmaların qarşısını almaq üçün zərərçəkmiş təsərrüfatlarda quşların məhv edilməsinə və dezinfeksiya tədbirlərinə başlayıb. Mütəxəssislər bu virusların insanlara keçməsi riskinin yüksək olduğunu və gigiyenik qaydalara ciddi əməl olunmasının vacibliyini vurğulayırlar. Avropada da virus təhlükələri diqqətdən kənarda qalmayıb. Xüsusilə Çexiyanın paytaxtı Praqa və ətraf bölgələrində hepatit A virusunun sürətli yayılması müşahidə olunur. Son bir ayda bu virusla bağlı 928 təsdiqlənmiş hal və 10 ölüm hadisəsi qeydə alınıb.

“Kirli əllər xəstəliyi” kimi tanınan bu virus əsasən qida və su vasitəsilə yayılır. Turist axınının çox olduğu yay aylarında bu cür infeksiyaların yayılması gözlənilən idi. Rəsmilər əhalini və turistləri şəxsi gigiyenaya maksimum diqqət yetirməyə çağırır. ABŞ-da isə Qərb Nil virusunun daşıyıcısı olan ağcaqanadların sayı rekord həddə çatıb. Xüsusilə Konnektikut və Miçiqan ştatlarında virus daşıyan ağcaqanadların geniş yayıldığı bildirilib. Hələlik insanlarda yoluxma halları qeydə alınmasa da, mütəxəssislər bunun yalnız zaman məsələsi olduğunu deyirlər. Sanitariya orqanları ağcaqanadlarla mübarizə tədbirlərini gücləndirib və əhalini açıq havada olduqları zaman xüsusi qoruyucu vasitələrdən istifadə etməyə çağırır.

Bu yay müxtəlif bölgələrdə yayılan viruslar bir daha sübut etdi ki, pandemiya sonrası dövrdə səhiyyə sistemləri və cəmiyyətlər ayıq qalmalıdır. İstər Chikungunya, istər quş qripi, istərsə də hepatit A və Qərb Nil virusu kimi xəstəliklər fərqli coğrafiyalarda, fərqli yollarla yayılsa da, hamısının qarşısını almağın əsas yolu vaxtında tədbirlər, şəffaf məlumatlandırma və şəxsi gigiyenaya əməl etməkdir.

❑ **Afaq MİRAYİQ,**
**“Yeni Müsavat”**

# Müəllimlər üçün gizlədilən vakant yerlər - Bunu kim edir?

## Təhsil eksperti texnologiya fənninin sistemli şəkildə gözdən salındığını açıqladı

**Müəllimlərin işə qəbulu (MİQ) üzrə texnologiya fənnindən vakant yerlərin gizlədildiyi iddia edilir. "Bakı-Xəbər" yazıb ki, bu şikayətlə bir qrup müəllim sosial şəbəkədə çıxış edib. Onlar bildirir ki, builki imtahanlarda texnologiya fənninin tədrisi üçün heç bir vakant yer ayrılmayıb. Bu da həmin fənn üzrə bu il imtahanda iştirak edərək müvafiq nəticəni göstərən müəllimlər arasında narazılığa səbəb olub. İddia edilir ki, mövcud vakansiyalar gizlədilir və seçim prosesi zamanı göstərilmir.**

Arayış üçün deyək ki, müəllimlərin işə qəbulu imtahanı 2009-cu ildən etibarən həyata keçirilməyə başlanıb və ilk dəfə həmin ildə 260-a yaxın gənc müəllim Bakı şəhəri üzrə orta ümumtəhsil məktəblərində işə qəbul edilib, bununla da Azərbaycanda işə qəbul imtahanının yeni bir mərhələsi başlanılıb.

Müəllimlərin işə qəbulunda vakant yerlərin gizlədilməsi fikri, iddiası hər il səslənir. Ümumiyyətlə, vakant yerlərin gizlədilməsi ciddi problemdir. Bəzən vakansiyaya az saat çıxarılır və gənclər həmin məktəblərə getmək istəmirlər.

Müəllimlər üçün vakant yerlərin gizlədilməsi necə həyata keçirilir? Əgər builki imtahanlarda texnologiya fənninin tədrisi üçün heç bir vakant yer ayrılmayıbsa, onda niyə bu imtahan keçirilir?

Qeyd edək ki, əslində, bu iddialar ilk dəfə səsləndirilmir. Müəllimlərin işə qəbul prosesi başladığı gündən, yəni 2009-cu ildən bəri hər il vakant yerlərin gizlədilməsi ilə bağlı eyni narazılıqlar təkrarlanır. Hətta bəzi ekspertlər bu problemin sistematik xarakter daşıdığını deyirlər.

Qeyd edək ki, MİQ imtahanı ilk dəfə tətbiq edilən 2009-cu ildə təxminən 260 gənc müəllim Bakı məktəblərinə işə qəbul edilmişdi. O vaxtdan bu yana müsabiqənin texniki və təşkilati tərəflərində irəliləyişlər olsa da, vakansiyaların şəffaf şəkildə təqdim olunması problemi hələ də öz həllini tapmayıb.

"Yeni Müsavat"a danışan təhsil eksperti Elmin Nuri problemin köklərinin daha dərin olduğunu bildirib və texnologiya fənninin sistemli şəkildə gözdən salındığını deyib: "Ümumiyyətlə, texnologiya fənninə son illərdə göstərilən laqeyd münasibət ciddi şəkildə düşündürücüdür. Bu məsələ artıq ayrıca bir ictimai müzakirə panelinin mövzusu olmalıdır. Əgər bu fənnə ehtiyac yoxdursa, o zaman universitetlərdə bu ixtisas ümumiyyətlə ləğv edilməlidir. Yox, əgər bu ixtisas bizə lazımdırsa və universitetlərdə tədris olunursa, o zaman vakant yerlərin açıq şəkildə təqdim olunmaması ciddi suallar doğurur".



Ekspertin fikrincə, texnologiya fənni üzrə vakansiyaların təqdim olunmaması təkcə MİQ-in təşkili ilə bağlı deyil, bu, fənnin tədris yükü və məktəblərdəki mövqeyi ilə birbaşa əlaqəlidir: "Texnologiya fənni orta məktəblərdə cəmi həftədə bir dəfə tədris olunur. O deməkdir ki, həmin fənni tədris edən müəllimin əməkhaqqı çox aşağıdır, bəlkə də məktəbdə çalışan digər müəllimlərin maaşının yarısı qədər belə deyil. Digər fənlərdən fərqli olaraq, texnologiya müəllimi əlavə dərs saatı, kurs və ya repetitorluq imkanı ilə maaşını artırmaq imkanına malik deyil. Fizika, kimya, tarix müəllimləri kimi əlavə qazanc imkanları yoxdur. Bu baxımdan texnologiya müəllimlərinə bu gün az qala qəhrəman kimi baxmalıyıq. Ən az əməkhaqqı, ən az dərs saatı, ən az hörmət... Amma biz bu sahədə nə edirik? Onların sayını artırmaq, dərs saatlarını çoxaltmaq əvəzinə, vakansiyaları sıradan çıxarırıq. Bu, açıq-aşkar fənnə və bu sahədə çalışanlara qarşı laqeyd münasibətdir".

Ekspert qeyd edib ki, texnologiya fənni heç də əhəmiyyətsiz deyil, əksinə, bu fənn şagirdləri gələcək peşə həyatına hazırlayan, praktiki bacarıqlar qazandıran vacib komponentlərdən biridir: "Texnologiya fənninin kurikulumu digər fənlərdən heç də geri qalmır. Bu fənn əmək bazarı ilə sıx təmasda olan, peşə təhsili ilə bilavasitə əlaqəli istiqamətdir. Təəssüf ki, vaxtilə 'əmək təlimi' fənninə necə laqeyd yanaşırdıqsa, indi də onun xələfi olan texnologiya fənninə eyni münasibəti göstəririk".

E.Nuri həmçinin qeyd edib ki, müəllimlər üçün vakant yerlərin gizlədilməsi artıq uzun illərdir davam edən sistemli problemdir: "Bu, təəssüf ki, yeni məsələ deyil. Elm və təhsil naziri Emin Əmrullayev özü də bu problemin mövcudluğunu bir neçə dəfə etiraf edib. Etiraf etmək lazımdır ki, nazirlik son illərdə bu sahədə müəyyən addımlar atıb, şəffaflıq istiqamətində ciddi işlər görülür. Amma problem tam aradan qalxmayıb. Əgər məsələ kökündən həll edilsəydi, bu qədər geniş narazılıq dalğası yaranmazdı. Niyə yüzlərlə müəllim bu barədə etiraz edir? Heç kim durduğu yerdə yalan danışmır".

**❑ Xalidə GƏRAY, "Yeni Müsavat"**



Kamran Əsədov

# "DİM abituriyentlərə ziyan vurur" - ekspert

**"Dövlət İmtahan Mərkəzi (DİM) həm universitetlərə, həm də abituriyentlərə ciddi ziyan vurur. Bu, texniki səhv deyil - idarəetmə problemidir". Tribunainfo.az xəbər verir ki, bu fikirlərlə təhsil eksperti Kamran Əsədov çıxış edib. O bildirib ki, DİM bununla çox sayda plan yerinin boş qalmasına səbəb olub:**

"Bu il 9 illik baza üzrə kolleclərə maraq çox idi - 26 mindən çox şagird qeydiyyata düşdü. Amma ixtisas seçimi edənlərin sayı cəmi 11 246 oldu. Plan yerləri 8 min civarında idi. "Bal artımı olacaq" deyirdilər, amma olmadı.

Səbəb aydındır: DİM "Abituriyent" jurnalını gec nəşr etdi, seçim üçün az vaxt ayırdı, statistik məlumatları vaxtında vermədi. Ucqar bölgələrə jurnal vaxtında çatmadı, internet zəif olduğu üçün elektron variant da işləmədi, valideyn-abituriyent məsləhətləşməsi üçün vaxt olmadı.

Eyni səhv magistr qəbulu zamanı da olmuşdu, indi isə ali məktəb ixtisas seçimi üçün təkrarlanır. Avqustun 11-də seçim başlayacaq, cəmi 9 gün vaxt var. Jurnal hələ çıxmayıb, statistik məlumat yoxdur. Belə qısa müddət və gecikmiş informasiya on minlərlə plan yerinin boş qalmasına gətirəcək. DİM bu yanaşma ilə həm universitetlərə, həm də abituriyentlərə ciddi ziyan vurur. Bu, texniki səhv deyil - idarəetmə problemidir".

# Azərbaycanda məktəblər 12 illik olacaq?

**Son günlər sosial şəbəkələrdə növbəti tədris ilindən 12 illik təhsilə keçidlə bağlı məlumatlar yayılıb. Elm və Təhsil Nazirliyindən APA-ya açıqlamada növbəti tədris ilindən XII sinfin artırılacağı xəbərinin həqiqəti əks etdirmədiyi bildirilib. Qeyd olunub ki, prinsip etibarilə Azərbaycanda ümumi təhsil 12 ili (1il+11il) əhatə edir:**

məktəbəhazırlıq mərhələsi (5 yaş);

ibtidai təhsil (I-IV siniflər);

ümumi orta təhsil (V-IX siniflər);

tam orta təhsil (X-XI siniflər).



"Ənənəvi mənada 12 illik təhsil sisteminə keçid isə çoxşaxəli və mürəkkəb prosesdir. Elm və Təhsil Nazirliyi olaraq məqsədimiz təkcə illərin sayını artırmaq deyil, beynəlxalq standartlara tam cavab verən keyfiyyətli təhsil mühiti yaratmaqdır", - məlumatda qeyd olunub.

# Rezidenturaya imtahan bu tarixdə keçiriləcək

**Rezidenturaya qəbul imtahanının 2-ci mərhələsi keçiriləcək. Dövlət İmtahan Mərkəzi məlumat yayıb. Bildirilib ki, 10 avqust 2025-ci il tarixində Bakı və Naxçıvan şəhərlərində rezidenturaya qəbul imtahanının 2-ci mərhələsi keçiriləcək. İmtahan Bakı şəhərində 4, Naxçıvan şəhərində 1 binada təşkil olunacaq və saat 10:00-da başlanacaq. İmtahan 2 saat 30 dəqiqə davam edəcək.**

İmtahanın başlanmasına 15 dəqiqə qalmış - saat 09:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmır. Namizədlər "İmtahana buraxılış vərəqəsi" buradan çap edə bilərlər.

Namizəd imtahana gələrkən şəxsiyyətini təsdiq edən sənədin əslini və "İmtahana buraxılış vərəqəsi"ni mütləq gətirməlidir. Göstərilən sənədlərdən hər hansı biri olmazsa və ya sənədlər arasında uyğunsuzluq olarsa, namizəd imtahana buraxılmayacaq.

Kütləviliyin qarşısının alınması məqsədilə imtahan iştirakçıları üçün imtahan binasına müxtəlif daxilolma vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək lazımdır.

Məlumat üçün bildiririk ki, imtahanın II mərhələsində iştirak etmək üçün 905 namizəd qeydiyyatdan keçib. Onlardan 336 nəfəri oğlan, 569 nəfəri qızdır. 739 namizəd Azərbaycan bölməsinin, 169 namizəd rus bölməsinin, 373 namizəd cari ilin, 532 namizəd isə əvvəlki illərin məzunudur. 2 nəfər xarici ölkə vətəndaşıdır. Bakı şəhərində 879, Naxçıvan şəhərində isə 26 namizədin imtahan verəcəyi gözlənilir. İmtahanın idarə olunması üçün 5 ümumi imtahan rəhbəri, 11 imtahan rəhbəri, 81 zal nəzarətçisi, 12 buraxılış rejimi (mühafizə) əməkdaşı ayrılıb.

Qeyd edək ki, bu mərhələdə iştirak edəcək 905 nəfərdən 674 nəfəri ötən illərdəki imtahan nəticəsinə görə, 231 nəfər isə builki imtahanlarda məqbul qiymət aldığı üçün ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına buraxılıb.

YENİ MÜSAVAT
Son səhifə
N 139 (8749) 9 avqust 2025

# Tərəvəzlər də qanda şəkəri qaldıra bilər - Həkim



Bəzi tərəvəzlər sağlam qan şəkərinin səviyyəsini "məhv edə bilər. Medicina.az-a istinadən xəbər verir ki, bu barədə həkim Nataliya Komova bildirib. Onun sözlərinə görə, bəzi tərəvəzlər qan şəkərinin səviyyəsinə mənfi təsir edərək, onların dalğalanmasına və artmasına səbəb ola bilər:

"Tərəvəzlər lif, qida maddələri ilə zəngindir və yeyildikdə sağlamlıq üçün lazım olan optimal qida tələbatını təmin edir. Qan şəkərinin səviyyəsini təhlükəli dərəcədə yüksəldə bilən tərəvəzlərə kartof, noxud, qarğıdalı, çuğundur, yerkökü daxildir - onlar karbohidratlarla zəngindir və sağlam qan şəkərinin səviyyəsinə zərər verə bilər.

Sadalanan bəzi məhsulların yüksək qlisemik indeksi (GI) var, yəni onları yedikdən sonra qan şəkərinin səviyyəsində kəskin sıçrayış baş verə bilər. Başqa sözlə, bu cür məhsullar çox tez sovrulur və parçalanır, ardınca qlükoza qana buraxılır. Belə qida diabet xəstələri üçün kontrendikedir".

## Sakit okeanın dibində "sarı kərpicdən yol" aşkarlandı



Sakit okeanın dərinliklərində aparılan elmi tədqiqat zamanı alimlər qeyri-adi təbii formasiya ilə qarşılaşıblar. Belə ki, Papahanaumokuakea dəniz qoruğu ərazisində, Nutka adlı sualtı dağın zirvəsində sarı kərpicli yol formasını xatırladan struktur aşkarlanıb.

Tədqiqatın müəllifləri ABŞ-yə məxsus "E/V Nautilus" tədqiqat gəmisinin heyətidir. Alimlər sosial şəbəkələrdə geniş yayılan və əfsanələrə uyğun olaraq "Atlantidanın yolu" kimi təqdim edilən bu strukturun əslində tamamilə təbii mənşəli olduğunu bildiriblər.

Məlumata görə, sözügedən formasiya qədim vulkanik fəaliyyət nəticəsində yaranan gialoklast (vulkanik qırıntılı süxur) adlanan qaya növüdür. Vulkanın sürətlə soyuması və zamanla yaranan gərginliklər nəticəsində səthdə dərin çatlar əmələ gəlib və bu, səthi "kərpicli yol" formasında göstərib.

Alimlər qeyd ediblər ki, bu formasiya ilk baxışda göl yatağını xatırlatsa da, əslində sualtı vulkanik fəaliyyətin nəticəsidir.

Geoloqların fikrincə, bu cür formasiya Sakit okean dibində nadir hallarda müşahidə olunur və onun yaranma mexanizmini daha ətraflı araşdırmaq üçün tədqiqatlar davam etdirilir.

## Araşdırma: Kartof qızartması diabet riskini artırır

**Yeni bir araşdırmaya görə, həftədə üç və ya daha çox porsiya kartof qızartması yemək tip 2 diabetə tutulma riskini artıra bilər.**

Milli.Az xarici mətbuata istinadən xəbər verir ki, Beynəlxalq tədqiqatçılar qrupu, o cümlədən Kembric Universitetindən bir qrup mütəxəssis, kartof istehlakı ilə tip 2 diabet riski arasındakı əlaqəni araşdırıblar.

Ümumilikdə, tədqiqat nəticəsində məlum olub ki, həftədə ən azı üç dəfə kartof qızartması yeyənlərdə bu xəstəliyə tutulma riski 20% artır. Lakin bu artım bişmiş, qaynadılmış və ya püre halında olan kartoflara şamil olunmur.

Diabetes UK təşkilatından doktor Faye Riley bildirib:

"Bu araşdırma göstərir ki, kartof və tip 2 diabet arasındakı əlaqə göründüyü qədər aydın deyil".

Tədqiqatçılar ABŞ-də 205,000-dən çox tibb işçisinin sağlamlığını izləyən tədqiqatların məlumatlarını təhlil ediblər.

İnsanların qidalanma vərdişləri haqqında dəfələrlə sorğular aparılıb və təxminən 40 illik müşahidə dövründə 22,000 tip 2 diabet halı qeydə alınıb.

**Mürəkkəb xəstəlik**

Tədqiqatçılar British Medical Journal (BMJ) jurnalında yazıblar:

"Kartof istehlakının artması ilə tip 2 diabet riskinin yüksəlməsi əsasən kartof qızartmalarının istehlakı ilə bağlıdır".

"Qızardılmış kartof istehlakının artması, lakin bişmiş, qaynadılmış və ya püre kartofların birlikdə istehlakı bu cür risklə əlaqələndirilməyib."

Tədqiqatçılar həmçinin həftədə üç porsiya kartofun bütöv (emal olunmamış) taxıllarla əvəz olunmasının tip 2 diabet riskini 8% azaltdığını aşkar ediblər.

Lakin kartofun ağ düyü ilə əvəz olunması isə əksinə, daha yüksək risklə əlaqələndirilib.

Dr Riley əlavə edib:

"Tip 2 diabet mürəkkəb bir vəziyyətdir. Onun inkişafına genetika, yaş və etnik mənsubiyyət də daxil olmaqla bir çox faktor təsir göstərir".

Qidalanma yalnız bu mənzərənin bir hissəsidir, lakin bu araşdırma göstərir ki, yeməyin necə hazırlanması da böyük əhəmiyyət kəsb edir. O, həmçinin bütöv taxıllara üstünlük verilməsi və qızardılmış, emal olunmuş məhsullardan uzaq durmağın vacibliyini bir daha xatırladır.



## "Adidas" kilsədə dəb gecəsi təşkil etdi və mübahisələrə səbəb oldu

**Almaniyanın məşhur idman geyimləri istehsalçısı "Adidas" Çinin Şanxay şəhərində yerləşən bir kilsəni brendləyərək özünün "Adidas Originals" xətti üçün dəb gecəsi təşkil edib. Bildirilir ki, tədbir zamanı kilsənin interyeri "Adidas"ın simvolu olan üç zolaqla bəzədilib, binanın fasadına isə "Adidas Originals" loqotipinin silueti asılıb. Hadisə sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olub. Bir çox istifadəçi bu addımı qeyri-etik və dini məkanların ticarət məqsədilə istifadə olunması kimi qiymətləndirsə də, digərləri böyük maraqla qarşılayıb.**

## Bunları bilirsinizmi?

Avqust

Ən az 8 saat yatmağınız vacib hesab edilir. Bunun üçün sizin aşağıdakı tövsiyələrə əməl etməyiniz lazımdır:

* Hər gecə yatmamışdan qabaq üzünüzü yuyun, dişlərinizi fırçalayın, işıqları söndürün.
* Əgər evdəsinizsə, yuxunuz qəfildən gəlirsə, mütləq həmin an bütün işlərinizi buraxıb yatın. Əks halda, gecəni narahatlıqla və gec yata bilərsiniz. Bu da sizin üçün yaxşı olmaz.
* Yeni yuyulmuş yastıq üzü və yataq dəslərindən istifadə edin. Belə olan halda, gecə rahat dönə və sakit yata bilərsiniz. Bundan başqa, yatmazdan öncə otağınıza bir az ətir vurun.
* Saatı olduğunuz otaqda saxlamayın. Saatın səsi sizi narahat etməmək üçün və gecə yarı yuxudan oyanmış olduğunuz halda görüb əsəbiləşməməyiniz üçün onu gözünüzdən kənar bir yerə qoyun.
* Yastığınızı qabartılmış vəziyyətə salın. Bu rahat yuxuya getməyə kömək edir.
* Düzgün yastıq seçin. Yastıq yumşaq olmalıdır, ancaq çox yüksək olmalı, boynunuzu dəstəkləməli şəkildə dayanmalıdır.
* Pəncərələrinizə qalın pərdə taxın. Hətta çöldəki işıqların yanması belə sizin yatmağınıza mane ola bilər.
* Yataq otağınızı təmiz saxlayın və rahatlayıcı rənglərdən istifadə edin. Otaqda elə rənglər olmalıdır ki, insanı yuxuya tez apara bilsin.
* Yatmadan öncə bir ovuc çərəz, ya da meyvə yeyin. Bunlar yuxunuzun tez gəlməyinə yaxşı təsir bağışlayacaq. Ondan əlavə bir stəkan ılıq süd də içə bilərsiniz.
* Yataqda olarkən gündəliyinizə 10 dəqiqə vaxt ayırın. Gün ərzində yaşadığınız hadisələr, hiss etdiyiniz duyğuları yazın ora, beləcə də yuxuya rahat getmiş olarsınız.

## Kondisioner filtrləri təhlükə saçır - Ölümcül bakteriya yayılıb



**ABŞ-ın Nyu-York şəhərində "Legioner xəstəliyi" kimi tanınan legionellozdan üçüncü ölüm halı qeydə alınıb.**

Milli.Az xəbər verir ki, bu barədə şəhərin Səhiyyə Departamenti məlumat yayıb. Bildirilib ki, infeksiya ilk dəfə iyulun 25-də aşkarlanıb və qısa müddət ərzində yayılaraq epidemiya halını alıb. Hazırda 67 nəfərə bu diaqnoz qoyulub.

Şəhər rəhbərliyi qripə bənzər əlamətlər - öskürək, boğaz ağrısı, burun axıntısı, sinə ağrısı və nəfəs darlığı hiss edən sakinlərə dərhal həkimə müraciət etməyi tövsiyə edir.

Legionelloz - "Legionella pneumophila" bakteriyasının səbəb olduğu ciddi ağciyər infeksiyasıdır. Bakteriya əsasən durğun sularda və baxımsız kondisionerlərin nəm filtrlərində çoxalır. Kondisionerin yaratdığı hava axını ilə ətrafa yayılaraq nəfəs yolu ilə insan orqanizminə daxil olur.

Risk qrupuna kondisionerli, qapalı və sıx məkanlarda çalışan şəxslər, havalandırma sistemlərinin təmizliyinə nəzarət edilməyən müəssisələrin əməkdaşları, həmçinin yaşlılar, immun sistemi zəif olanlar və siqaret istifadəçiləri daxildir.

Xəstəlik əlamətləri adətən soyuqdəymə və qriplə qarışdırılır. Diaqnozun gec qoyulması isə ağır fəsadlara və bəzi hallarda ölümə səbəb ola bilər. Mütəxəssislər legionellozun qan analizi ilə vaxtında aşkarlanmasının və dərhal müalicəyə başlanmasının vacibliyini vurğulayırlar.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emil SALAMOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 1.500